Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 125 (8148) ÇƏRŞƏNBƏ AXŞAMI, 11 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## MİLLİ QURTULUŞ - 26




**BU YOL BİZİM YOLUMUZDUR!**
**Bu yol Heydər Əliyev yoludur!**
**Bu yol azadlıq, müstəqillik və demokratiya yoludur!**
**Bu yol Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının inam, əminlik və qətiyyətlə getdiyi yoldur!**
**Bu yol xalqımızı daim öz arzu və istəklərinə qovuşduran yoldur!**

❖ ❖ ❖

BU YOL BİZİM YOLUMUZDUR!
**Özümüzün seçdiyimiz, amala çevirdiyimiz yoldur!**

Bir dəfə - 101 il bundan öncə 23 ay davam edən bu yolu yarıda qırdılar!

Amma indi bu yol daha geniş, daha etibarlı, daha sürətlidir!

Doğrudur, yenə də bizə aşkar-gizlin mane olmaq istəyən düşmənlərimiz, bədxahlarımız, sapı özümüzdən olan baltalarımız var!

Onlar dayanmadan, yorulmadan bizə qarşı mübarizə aparırlar: mənfur niyyətləri ilə, şər-şəbədələri ilə, qarayaxmaları ilə, siyasi mübarizəyə, insanlığa, kişiliyə sığmayan "üsulları" ilə!

Prezidentimiz onların mənfur simalarını dəqiq göstərir: *"Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhtanları darmadağın edirik və etməliyik".*

**Ardı 2-ci səh.**

# Ölkəmiz xarici turistlər üçün cəlbedici məkana çevrilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyerın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edərək, bu tədbirin beynəlxalq əməkdaşlıq baxımından önəmini vurğuladı. Bakının qədim tarixi ənənələrə malik olduğunu vurğulayan Prezident İlham Əliyev bununla bərabər paytaxtımızın sürətlə inkişaf etdiyini və müasir infrastrukturun yaradıldığını qeyd etdi. Dövlət başçısı hazırda ölkəmizin xarici turistlər üçün cəlbedici məkana çevrildiyini qeyd edərək qonaqların sayının durmadan artdığını bildirdi.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyer Bakıya gələn hər bir qonaqda buradakı inkişaf proseslərinin, tarixi və müasir tikililərin dərin təəssürat hissi doğurduğunu qeyd etdi. O, Bakının beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin və infrastruktura qoyulan investisiyaların paytaxtımızın inkişafına böyük töhfə verdiyini vurğuladı. Tomas Vonyer nümayəndə heyəti adından "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun keçirilməsi ilə bağlı göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə, o cümlədən Azərbaycan Memarlar İttifaqına minnətdarlığını bildirdi. Qonaq Bakının inkişafı ilə bağlı əldə edilmiş nailiyyətlərlə əlaqədar təbriklərini dövlət başçısına çatdırdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda həyata keçirilən inkişaf prosesləri ilə yanaşı, tarixi irsin qorunması işinə də böyük diqqət verildiyini qeyd etdi. Eyni zamanda, dövlət başçısı Azərbaycanda əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin də həyata keçirilməsinə böyük önəm verildiyini bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Qazaxıstan münasibətləri xalqlarımızın ortaq tarixi, milli-mənəvi köklərindən qaynaqlanır. İnanıram ki, belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimizin və strateji tərəfdaşlığımızın bundan sonra da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2019-cu il*

## Azərbaycan ilə Qazaxıstan arasında dostluq əlaqələrinin uğurla inkişaf edəcəyinə əminlik bildirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Qazaxıstan Respublikasının Prezidenti Qasım-Jomart Tokayevə telefonla zəng edib.

Dövlətimizin başçısı Qasım-Jomart Tokayevə prezident seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Dövlət başçıları Azərbaycan ilə Qazaxıstan arasında dostluq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Su ilə təminat həm iqtisadi, həm də sosial cəhətdən strateji məsələdir

### İlham ƏLİYEV: "Son illər meliorativ tədbirlərin həyata keçirilməsi geniş vüsət almışdır. Biz bir neçə il ərzində yüz minlərlə hektar yeni sahəyə su xətti çəkmişik"

Hər bir ölkə üçün su təminatı strateji məsələdir. Xüsusilə Azərbaycan kimi təbii su ehtiyatları az olan ölkələr üçün bu, ikiqat əhəmiyyətə malikdir. Bu üzdən Azərbaycanda əlavə su ehtiyatlarının yaradılması üçün mühüm işlər görülür.

Tovuzçay və Şəmkirçay su anbarlarının istifadəyə verilməsi böyük bir ərazidə su probleminin həllində mühüm rol oynayır. Bunun sayəsində Qərb bölgəsində vaxtilə sudan korluq çəkən torpaq sahələri indi bol məhsul verir. Şimal bölgəsinin və Abşeron yarımadasının su təminatında önəmli rol oynayan Taxtakörpü Su Anbarının istifadəyə verilməsi də bu regionda su probleminin həllini təmin etmişdir.

Görülən tədbirlər sayəsində bitkiçilik və heyvandarlıq sahələri inkişaf etmiş, ölkəmizin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi daha da yaxşılaşmışdır. Tədbirlər az olmamışdır: iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar yaradılmış, onların su təminatının maddi-texniki bazası möhkəmləndirilmişdir. Bütün maliyyə mənbələri hesabına regionlarda 2004-2018-ci illərdə ümumi uzunluğu 4,2 min kilometr olan suvarma kanallarının, 2,8 min kilometr uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, 413 min hektar sahədə torpaqların su təminatının və 264 min hektar sahədə meliorativ vəziyyətin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 166 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir.

**Ardı 3-cü səh.**

# Ermənistandan növbəti təxribat

### İşğalçı ölkə rəhbərliyinin təcavüzkar və qəbuledilməz siyasəti Qarabağ danışıqlarını pozmağa yönəlib

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə çözümünə çalışsa da, Ermənistanın son addımları, xüsusən də cəbhədə işğalçı ölkənin ordusunun törətdiyi təxribatlar konfliktin hərbi həllini bu gedişlə qaçılmaz edəcək.

Yerevan rəsmilərinin, o cümlədən baş nazir Nikol Paşinyanın sözdə bir şey deyib, əməldə başqa addımlar atması hadisələrin məhz bu istiqamətdə inkişafını zəruri edir.

Söhbət konkret olaraq Ermənistanın müdafiə naziri David Tonoyanın əmrilə Azərbaycan hərbçilərinin qətlə yetirilməsindən gedir. Belə ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, David Tonoyan "Azərbaycan Silahlı Qüvvələrinin açdığı atəşlə vurulmuş hərbi qulluqçu Sipan Melkonyanın ölümünə görə cəza tədbirlərini həyata keçirən" hərbçilərə yüksək mükafatlar təqdim edib. Məlumata görə, hərbçilər onlara verilmiş tapşırığı yüksək səviyyədə yerinə yetiriblər.

Bütün bunlar son günlər işğalçı ölkə qüvvələrinin təmas xətti boyu bir-birinin ardınca həyata keçirdiyi təcavüzkar əməllərin məhz Ermənistan rəhbərliyinin şəxsi göstərişləri ilə baş verdiyini birbaşa təsdiq edir.

Xatırladaq ki, bu günlərdə Dağlıq Qarabağdakı Ermənistan silahlı birləşmələrinin atəşkəs rejimini pozması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi Elşən Xəlilov həlak olub.

**Ardı 7-ci səh.**

# MİLLİ QURTULUŞ

## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993
2019

# BU YOL BİZİM YOLUMUZDUR!

*Əvvəli 1-ci səh.*

**Xalq öz rəhbərinin ətrafındadır!**

**Xalq onu arzu və istəyinə çatdıran iqtidarın yanındadır!**

**Xalq bugünkü sabitliyin də, inkişafın da, əmin-amanlığın da, yüksələn sosial rifahın da qədrini yaxşı bilir!**

Daha onu aldatmaq və çaşdırmaq mümkün deyil!

Artıq 343 aydır sınaqlardan çıxaraq, maneələri dəf edərək şərəfli bir yol gəlirik!

Bu, qurbanlar verdiyimiz, məhrumiyyətlərə dözdüyümüz, inadla davam etdiyimiz yoldur!

**Bu, həm də hamımızın, Azərbaycanı sevənlərin yoludur!**

❖ ❖ ❖

BU YOL BİZİM YOLUMUZDUR!

Cəmi 101 ildir yol gedirik!

Amma ortada 101-in 71-ni bizdən qoparıb aldılar!

Müstəqilliyin ikinci dövründə, xüsusən son 16 ildə isə elə bir sürət götürdük ki, elə möhtəşəm layihələrə həyat vəsiqəsi verdik ki, əslində bir neçə yüz ilin işini görmüş sayıldıq!

**Çünki bu yolun mayakı Heydər Əliyevdir!**

**Çünki bu yolun bayraqdarı İlham Əliyevdir!**

*Bu gün dünya bizə heyrandır!*

*Bu gün dostlarımızın, bizi sevənlərin fəxriyik!*

Düşmənlərimizin, bədxahlarımızın, ayağımızdan çəkməyə çalışanların isə başlarına düşən nəhəng dəyirman daşıyıq!

❖ ❖ ❖

BİZ ÖZ YOLUMUZLA GEDİRİK!

**Bu yol inkişaf və tərəqqi yoludur!**

Bu inkişafı, bu yüksəlişi beynəlxalq qurum və təşkilatların hər il açıqladıqları hesabatlar da təsdiq edir!

Bu inkişafı beynəlxalq reytinq agentliklərinin tərtib etdikləri siyahıların önündə tutduğumuz yerlər də əks etdirir!

**Rəqəmlər və faktlar isə əyani şəkildə göstərir!**

SON 15 İLDƏ:

- ümumi daxili məhsul 3,3 dəfə;
- qeyri-neft sektoru 2,8 dəfə;
- sənaye potensialı 2,6 dəfə;
- kənd təsərrüfatı 1,7 dəfə;
- valyuta ehtiyatlarımız isə 24 dəfə ARTIB!

HƏLƏ BU HARASIDIR:

- ölkə iqtisadiyyatına 260 milyard dollar sərmayə qoyulub;
- dörd böyük su anbarı tikilib;
- 100 mindən çox müəssisə yaradılıb;
- 15 min kilometr avtomobil yolu çəkilib;
- 31 yeni elektrik stansiyası inşa olunub;
- 17 aqropark fəaliyyətə başlayıb;
- orbitə 3 peykimiz çıxarılıb!

**Bütün bunlar edilənlərin hamısı olmasa da, görülən işlərin həcmi barədə müəyyən təsəvvür yaradır!**

❖ ❖ ❖

BİZ ÖZ YOLUMUZLA GEDİRİK!

**Bu yol dünyaya inteqrasiya, Azərbaycanın maraqlarını təmin etmək, bərabərhüquqlu, hər tərəfə fayda gətirən əməkdaşlıq qurmaq, ölkəmizin adını və imicini yüksəltmək yoludur!**

AZƏRBAYCAN ÖZ TƏŞƏBBÜSÜ VƏ GÜCÜ İLƏ:

- Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini;
- Bakı-Tbilisi-Ərzurum qaz kəmərini;
- Bakı-Tbilisi-Qars dəmir yolu xəttini ÇƏKİB:
- Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərini yaradıb;
- Azərbaycanın sərmayəsi ilə Türkiyədə "Star" zavodu inşa olunub;
- Bakıdakı Ələt yeni ticarət limanı beynəlxalq logistika mərkəzinə çevrilib.

*Azərbaycan bu gün Cənubi Qafqazın ən güclü və modern dövlətidir!*

*Azərbaycanda Cənubi Qafqazın iqtisadiyyatının 75 faizindən çoxu cəmlənib!*

*Azərbaycanın iştirakı və razılığı olmadan Cənubi Qafqazda heç bir layihə reallaşa bilmir!*

**Budur bizim gücümüz, qüdrətimiz!**

**Budur bizim imkanlarımız, əməlimiz!**

❖ ❖ ❖

BİZ ÖZ YOLUMUZLA GEDİRİK:

**Bu yol dünyada tanınmaq, söz sahibi olmaq, nüfuz sahibinə çevrilmək yoludur!**

- Müstəqil Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, Prezident İlham Əliyev bu mötəbər qurumun iclaslarına sədrlik etdi;



- Azərbaycan uzun illərdir Avropa Şurasının üzvüdür;
- Avropa İttifaqı ilə yeni əməkdaşlıq müqaviləsi imzalanmaq mərhələsindədir;
- Ölkəmiz BMT-dən sonra ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatına rəhbərliyə başlayıb;
- Multikulturalizm modelimiz dünya tərəfindən öyrənilir, təqdir edilir;
- I Avropa və IV İslam Həmrəyliyi Oyunlarını, habelə futbol üzrə Avropa liqasının final görüşünü uğurla keçirmişik;
- Qloballaşan dünyanın problemlərinin dünyanın tanınmış siyasi liderləri ilə birlikdə müzakirə olunduğu məkan imicini qazanmışıq!

**Azərbaycan özü gənc olsa da, dünyaya maraqlı və ağıllı təkliflər verməyi, problemlərdən düzgün çıxış yollarını göstərməyi bacarır!**

**Azərbaycan öz nümunəsi və müxtəlif modelləri ilə dünyanı gözlənilən təhlükələrdən xilasının ağıllı variantlarını təqdim edə bilir!**

❖ ❖ ❖

BİZ ÖZ YOLUMUZLA GEDİRİK!

**Bu yol xalqa ürəklə, vicdanla xidmət etmək yoludur!**

**Bu yol daim xalqın yanında olmaq, onun çətinlik və problemlərini həll etmək yoludur!**

**Bu yol xalqla iqtidarın birliyini, vəhdətini təmin etmək yoludur!**

**Bu yol xalqın istəklərini gerçəkləşdirmək, sosial rifahını yüksəltmək yoludur!**

BAXIN SON 15 İLDƏ:

- 2 milyondan çox yeni iş yeri açılıb;
- işsizlik 5 faizə, yoxsulluq səviyyəsi 5,1 faizə enib;
- maaşlar 7, pensiyalar 9 dəfə artıb;
- 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən qurulub;
- 640 tibb müəssisəsi tikilib və yenidən qurulub;
- 44 olimpiya mərkəzi inşa olunub;
- 6654 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə mənzil verilib;
- müharibə əlillərinə 7 min minik avtomobili təqdim edilib;
- qaçqın və məcburi köçkünlərə 103 şəhərcik və ya yaşayış kompleksi tikilərək təhvil verilib;
- sonuncu sosial paketin icrasından 3 milyondan çox ölkə vətəndaşı bəhrələnib;
- dövlət vətəndaşların banklara kredit borcu ilə bağlı problemlərin həllinin ən uğurlu formasını taparaq ağırlığın bir hissəsini öz üzərinə götürüb;
- çoxmənzilli binaların sənədləşdirilməsilə bağlı qətiyyətli addımlar atılıb;
- 38 şəhərin içməli su məsələsi tam şəkildə həllini tapıb;
- Şamaxı, Ağsu və İsmayıllı rayonlarında zəlzələdən zərər çəkmişlərə yeni evlər və mənzillər tikilib verilib və ya təmir edilib.

Görülən işlərin hamısını sadalamaq imkan xaricindədir!

**Görünən odur ki, iqtidarın atdığı bütün addımlar vətəndaş məmnunluğunu təmin edir!**

**Bütün bunlara görə xalq iqtidarı sevir və dəstəkləyir!**

❖ ❖ ❖

BİZ ÖZ YOLUMUZLA GEDİRİK!

**Bu yol ölkəmizin ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yoludur!**

Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi prinsiplər daim qüvvədədir:

- Azərbaycan bir qarış ərazisini belə heç kəsə güzəştə getməyəcəkdir!
- Azərbaycan öz ərazisində ikinci erməni dövləti yaranmasına heç zaman yol verməyəcəkdir!
- Azərbaycan problemin sülh danışıqları yolu ilə həllinə daim sadiqdir, substansiv danışıqların tərəfdarıdır!
- Azərbaycan ən müasir silahlarla silahlanmış, dünyanın 50 güclü ordusu sırasına daxil edilmiş qüdrətli orduya sahibdir!

*Aprel müharibəsi bunu bir daha əyani şəkildə göstərdi:*

- Lələtəpə yüksəkliyi ilə bərabər 2 min hektara nəzarət imkanı geriyə qaytarıldı!
- Cocuq Mərcanlı yenidən tikilib quruldu, məskunlaşdırıldı, ziyarət məkanına çevrildi!
- Naxçıvanda Günnüt əməliyyatı nəticəsində 11 min hektardan çox strateji ərazi Azərbaycan ordusunun əlinə keçdi!
- Ötən il Bakıda Türkiyə silahlı qüvvələri ilə bərabər 2 möhtəşəm hərbi parad keçirildi!

**Artıq Azərbaycan bütün sahələrdə - iqtisadiyyat, siyasət, diplomatiya, hərbi sahədə, habelə dünyada artan nüfuzu ilə Ermənistandan qat-qat yüksəkdədir!**

**Biz öz yolumuzla gedərək bu dəyişikliyə, üstünlüyə nail olmuşuq!**

❖ ❖ ❖

BİZ ÖZ YOLUMUZLA GEDİRİK!

Prezident İlham Əliyevin dediyi kimi: *"Biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz var. Biz güclü dövlət qururuq!"*

**Kimsə bizi bu yoldan döndərə bilməz!**

*Bu yol xalqa rahatlıq, əmin-amanlıq, sabitlik və rifah gətirən yoldur!*

*Bu yol Azərbaycanın müstəqilliyini sevən hər bir vətənpərvər insanın sevdiyi və xidmət etdiyi yoldur!*

*Bu yol İlham Əliyevin müəyyən etdiyi və xalqı seçdiyi hədəfə çatdıran yoldur!*

**Bu yol hər birimizin və hamımızın yoludur!**

**Bu yol öz yolumuz, özümüzün yoludur!**

**Bəxtiyar SADIQOV**

---

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaq istərdim.

Monqolustan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsini məmnuniyyətlə vurğulayır, bütün potensial istiqamətlərdə, xüsusən ticarət və iqtisadiyyat sahələrində əməkdaşlığımızı genişləndirmək və inkişaf etdirməklə bağlı razılaşdırılmış təşəbbüslərimizin reallaşdırılması üçün zati-alinizlə bundan sonra da birgə işləmək əzmində olduğumu bir daha təsdiqləyirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayır, dost Azərbaycan xalqına isə əmin-amanlıq və rifah diləyirəm.

*Dərin hörmətlə,*

***Xaltmaaqiyn BATTULQA,***
***Monqolustanın Prezidenti***

---

Zati-aliləri, hörmətli cənab Prezident!

Azərbaycanın Milli Bayramı - Respublika Günü münasibəti ilə Sizi Peru Hökuməti və xalqı adından, həmçinin öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar bayram münasibətilə Azərbaycan xalqına sülh və firavanlıq diləyərək ən xoş arzularımı çatdırır, ikitərəfli əlaqələrimizi əks etdirən dostluq və əməkdaşlıq münasibətlərimizin daha da güclənməsini diləyirəm.

Zati-aliləri, Sizə bir daha öz dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Martin Vizkarra KORNEXO,***
***Peru Respublikasının Prezidenti***

---

Zati-aliləri!

1918-ci il mayın 28-də müsəlman şərqində ilk demokratik respublika - qardaş Azərbaycan Xalq Cümhuriyyətinin yaranması münasibətilə zati-alinizə şəxsən öz adımdan və Misir-Azərbaycan Parlamentlərarası Dostluq Cəmiyyətinin üzvləri adından ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin səviyyəsini yüksək dəyərləndirirəm. Bu əlaqələrin tarixi kökləri qədim olsa da, hər iki qardaş dövlətin müdrik rəhbərlərinin səyləri sayəsində daha da yaxınlaşıb və inkişaf edib.

Uca Allaha dua edirəm ki, xalqlarımıza əmin-amanlıq və sülh, inkişaf və rifah bəxş etsin, zati-alinizi öz amanında və hifzində saxlasın.

*Dərin hörmətlə,*

***Usamə Əl-ƏBD,***
***Misir-Azərbaycan Parlamentlərarası Dostluq Cəmiyyətinin sədri, Misir Parlamentinin Dini məsələlər və Vəqflər komitəsinin sədri, İslam Universitetləri Birliyinin Baş katibi***

---

## Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə ölkədə təhsilin inkişafı sahəsində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Respublikanın şəhər və rayonlarında 3200-dən çox məktəbdə tikinti, əsaslı təmir-bərpa və yenidənqurma işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xeyli dərəcədə genişlənmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. Respublika ərazisində modul tipli məktəblərin quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.16.2-ci yarımbəndində göstərilmiş 18,0 (on səkkiz) milyon manat vəsait Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2019-cu il*

---

## Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə təhsil müəssisələrinin inkişafı sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində respublikanın şəhər və rayonlarında təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası üçün mühüm işlər görülmüşdür.

Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.17.1-ci yarımbəndində göstərilmiş 40.0 (qırx) milyon manat vəsait Bakı Şəhər İcra Hakimiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2019-cu il*

---

## "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" 2019-cu il aprelin 7-də Ər-Riyad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

---

## "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 fevral tarixli 993 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

"Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 53, № 2, maddə 187; 2018, № 4, maddə 671) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "40,0 (qırx)" sözləri "60,0 (altmış)" sözləri ilə əvəz edilsin;
2. 1-3-cü hissədə "22,0 (iyirmi iki)" sözləri "33,0 (otuz üç)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2019-cu il*

---

## "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aşağıdakı şəxslər "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti Müşahidə Şurasının üzvləri təyin edilsinlər:

İnam Kərimov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,10 iyun 2019-cu il*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Su ilə təminat həm iqtisadi, həm də sosial cəhətdən strateji məsələdir

*Əvvəli 1-ci səh.*

Son dövrlər, həmçinin mövcud torpaq mühafizə bəndlərinin 800 kilometrdən artıq hissəsi əsaslı surətdə möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 187 kilometrdən artıq mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılmışdır. Bununla yanaşı, əhalinin içməli suya olan tələbatının təmin edilməsi üçün 2273 subartezian quyusu istifadəyə verilmiş, ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi su tutumu 15,5 milyon kubmetr olan 3 su anbarında (Pirsaatçay, Zoğalavaçay, Ləvain) təmir-bərpa işləri aparılmışdır.

Təkcə keçən il həyata keçirilmiş yenidənqurma və tikinti tədbirləri hesabına 92284 hektar (onun 40108 hektarı yeni suvarılandır) sahədə torpaqlara suvarma suyu çatdırılmış və 8860 hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. 1392,8 min hektar sahədə isə kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin edilməsi üçün mənbələrdən 9000 milyon kubmetr su götürülmüş, sahələrə suayrıcılarından 6300 milyon kubmetr su verilmişdir. Bu işləri icra etmək üçün suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 62 milyon kubmetr həcmində lildən təmizləmə işləri görülmüş, eləcə də 5900 hidrotexniki qurğu, 156 subartezan quyusu, 270 nasos və mühərrik təmir edilmişdir.

Cari ildə də meliorasiya sahəsində az işlər görülmür. Yeri gəlmişkən qeyd edək ki, bu il 1393 min hektarda kənd təsərrüfatı bitkilərinin suvarılması nəzərdə tutulmuşdur. May ayına olan məlumata görə, taxıl bitkiləri 535 min hektar sahədə 1,9 dəfə suvarılmış, 73 min hektar sahədə pambıq bitkisinin arat suvarılması aparılmışdır. Hazırda kənd təsərrüfatı bitkilərinin suvarılması davam edir.




Cari il, həmçinin 41 şəhər və rayonun 254 yaşayış məntəqəsində 8362 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması, yeni torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 subartezan quyusunun layihə-smeta sənədləri hazırlanmışdır.

Su ilə təminat təkcə iqtisadi inkişafla bağlı deyil, həm də böyük sosial məsələnin həll edilməsi deməkdir. Sonuncu regional inkişaf proqramında da əhalinin içməli suya olan təminatının ödənilməsinə xüsusi diqqət ayrılıb. Həmin istiqamətdə görülən işlər məhz bu çərçivədədir. Regionlarda tikilən ən böyük sutəmizləyici qurğu olan Şəmkirçay sutəmizləyici qurğusu Gəncə, Şəmkir, Samux şəhərləri və ətraf kəndlərdə 300 mindən artıq əhalinin keyfiyyətli və fasiləsiz içməli su ilə təminatına hesablanıb. Bu məqsədlə məhsuldarlığı sutkada 140 min kubmetr olan qurğudan Gəncə şəhərinə 27, Şəmkir şəhərinə 16,5 kilometr magistral su kəməri çəkilib.

Ümumiyyətlə, indiyədək 50 şəhər və rayon mərkəzinin 38-də içməli su şəbəkələrinin tikintisi yekunlaşmışdır. Eyni zamanda, şəhər və rayon mərkəzləri ilə yanaşı, əhalisinin ümumi sayı 1 milyon 400 min nəfər olan 1050 kəndin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı mühüm işlər görülmüşdür. Dövlət başçısı tərəfindən 2017-2018-ci illərdə imzalanmış sərəncamlar sayəsində 46 rayonun 211 kəndində içməli su layihələri icra olunmuş və bununla 330 min sakinin keyfiyyətli içməli suya olan tələbatı ödənilmişdir.

Əhalinin içməli suya olan tələbatının ödənilməsi həm də onun sağlamlığının yaxşılaşdırılması deməkdir. Bu üzdən vətəndaşlara verilən içməli suyun keyfiyyətinin dünya standartları çərçivəsində saxlanmasına nəzarət etmək üçün müasir tələblərə cavab verən laboratoriya inşa edilmişdir. 2013-cü ildən fəaliyyətə başlayan bu laboratoriyada Almaniya, Fransa, ABŞ, Yaponiya və digər ölkələrin yüksək texnologiyalarından istifadə olunur. Burada quraşdırılan cihaz və avadanlıqların köməyi ilə içməli su və tullantı sularının fiziki-kimyəvi və bakterioloji göstəriciləri dəqiq və etibarlı analiz olunur.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## İsveçrədə Azərbaycan iqtisadiyyatına maraq artıb

78 min şirkəti özündə birləşdirən İsveçrənin Kiçik və Orta Miqyaslı Müəssisələr Cəmiyyətinin mətbuat orqanı olan “Erfolg” (“Müvəffəqiyyət”) qəzeti son buraxılışında Azərbaycan iqtisadiyyatına geniş yer ayırıb.

Cəmiyyətə üzv bütün şirkətlər arasında paylanılmaqla yanaşı, İsveçrənin siyasi və işgüzar dairələri tərəfindən də maraqla izlənilən bu qəzetin “Müsahibə” bölməsində adətən İsveçrə siyasətinin və biznes dünyasının tanınmış nümayəndələri ilə müsahibələr yer alır.

AZƏRTAC xəbər verir ki, qəzetin tarixində nadir hallardan biri kimi, “Müsahibə” bölməsinin budəfəki qonağı ölkəmizin İsveçrə Konfederasiyasındakı səfiri Xanım İbrahimova olub. Səfir Azərbaycan-İsveçrə münasibətlərindən danışaraq son illər ərzində həyata keçirilmiş yüksək səviyyəli səfərlərin iki ölkə arasındakı əməkdaşlığın inkişafına böyük töhfə verdiyini bildirib.

İyunda Berndə ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın növbəti iclasının keçiriləcəyini qeyd edən səfir hazırda ikitərəfli münasibətlərdə iqtisadi əməkdaşlığın inkişafının əsas prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırıb. Səfir ölkəmizdə xarici investisiyalar üçün əlverişli şəraitin yaradıldığını, investorların hüquqlarının qorunması üçün lazımi iqtisadi islahatların aparıldığını və müvafiq qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib.

Müsahibədə, həmçinin Azərbaycanın turizm imkanlarından geniş söz açılıb. Ötən ilin oktyabrından etibarən Bakı-Cenevrə-Bakı birbaşa aviareysinin açılmasının, viza rejiminin sadələşdirilməsinin və ölkəmizdə turizm sahəsində xidmətin keyfiyyətinin artmasının İsveçrədən ölkəmizə gələn turistlərin sayının çoxalmasında mühüm rol oynadığı qeyd olunub.

Son illərdə iki ölkənin iqtisadyönümlü təşkilatları arasında əməkdaşlıq əlaqələri inkişaf edir. Bu ilin iyununda Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə İsveçrənin Kiçik və Orta Miqyaslı Müəssisələr Cəmiyyəti, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Turqau Kantonunun Ticarət və Sənaye Palatası arasında əməkdaşlıq haqqında memorandumların imzalanması nəzərdə tutulur. Bu barədə razılıq səfirliyin İsveçrə kantonlarına həyata keçirdiyi işgüzar səfərlər zamanı əldə edilib.




Cari ilin iyununda Sürixdə İsveçrə-MDB Birgə Ticarət Palatası ilə birgə biznes forumun təşkili də nəzərdə tutulan tədbirlər arasındadır. Oktyabrda isə Qərbi İsveçrənin işgüzar dairələrindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri gözlənilir.

## Beynəlxalq İnvestisiya Forumunda Azərbaycanı özəl sektorun nümayəndələri təmsil ediblər

Özbəkistanın Namanqan şəhərində “Doing business in Namangan” mövzusunda Beynəlxalq İnvestisiya Forumu keçirilib.

Dünyanın 36 ölkəsindən 500-dən çox qonağın iştirak etdiyi tədbirdə ölkəmizi “CTC Holding” şirkətinin baş direktoru Məhəmməd Nağıyev və “MEB İNVESTMENT” MMC-nin baş direktoru Məmməd Əhmədov təmsil ediblər.

Forumda Özbəkistan Baş nazirinin müavini Aziz Abduxakimov, xarici işlər nazirinin birinci müavini İlxom Nematov, investisiya və xarici ticarət nazirinin birinci müavini Alişir Abdualiev, Namanqan vilayətinin hakimi Xayrullo Bazarov, Ticarət-sənaye palatasının sədri Adxam İkramov çıxış edərək regiona sərmayə cəlb olunması imkanlarından danışıblar.

Bildirilib ki, vilayət rəhbərliyi sənaye, kənd təsərrüfatı, innovasiya, bərpa olunan enerji, turizm, səhiyyə və digər sahələrdə qarşılıqlı faydalı əsaslarla iş görmək üçün açıqdır.

Forum iştirakçıları “İstiqlol dizayn”, “ART Soft Tekc”, “Merrimed Farm”, “Çortoq”, “İdeal” və digər şirkətlərin fəaliyyəti ilə tanış olub.

Tədbirin yekunu ilə bağlı Namanqan vilayətinin rəhbərliyi ilə investorlar arasında 320 milyon dollar dəyərində 39 saziş imzalanıb.

## Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində 75 şirkət təmsil olunur

“İyunun 11-13-də Bakı Sərgi Mərkəzində keçiriləcək XVIII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika “TransCaspian 2019” sərgisində 10 ölkədən 75 şirkət təmsil olunur”.

Bu barədə “TransCaspian 2019” və IX Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat Sərgisinin (“Road & Traffic 2019”) açılışına həsr olunmuş mətbuat konfransında “Caspian Event Organisers” şirkətinin rəhbəri Fərid Məmmədov deyib.

O qeyd edib ki, sərgidə Belarus ilk dəfə olmaqla, Rusiya, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yük və sərnişin vaqonları istehsalı, sərnişin daşınması ilə bağlı xidmətlərini təklif edəcəklər.

## Sığorta bazarının yanvar-aprel ayları üzrə göstəriciləri açıqlanmışdır

Yanvar-aprel aylarında ölkədə fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 265,3 milyon manat məbləğində sığorta haqları toplanıb, 66,7 milyon manatlıq sığorta ödənişləri həyata keçirilib.

Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat xidmətindən bildirilib ki, könüllü sığorta bazarı üzrə haqlar 176,2 milyon manat, ödənişlər isə 43,4 milyon manat, icbari sığorta bazarı üzrə haqlar 89,1 milyon manat, ödənişlər isə 23,3 milyon manat olub.

Dörd ayda sektor üzrə məcmu sığorta haqlarının 66 faizi könüllü, 34 faizi isə icbari sığorta növlərinin payına düşüb. Sığorta ödənişlərinin 65 faizi könüllü, 35 faizi icbari sığorta növləri hesabına formalaşıb.

Yanvar-aprel ayları ərzində sığorta şirkətləri və sinifləri üzrə hesablanmış sığorta haqları və ödənişlərə dair ətraflı məlumatlar sığorta bazarının icmal göstəricilərində öz əksini tapıb.

## "Şəfəq-Asiman"da ilk kəşfiyyat quyusu qazılacaq



***Xəzərin Azərbaycan sektorundakı ümidverən perspektiv strukturlarından biri də “Şəfəq-Asiman”dır. Mütəxəssislərin fikrincə, strukturda bol qaz ehtiyatları aşkar oluna bilər. Lakin bu barədə yalnız kəşfiyyat qazmasından sonra qəti fikir söyləmək mümkündür.***

BP Azərbaycan şirkətinin geoloji kəşfiyyat üzrə meneceri Arzu Cavadova “Şəfəq-Asiman” barədə danışarkən bildirdi ki, bu blok Bakıdan təqribən 125 kilometr (78 mil) aralıda cənub-şərqdə yerləşir. Onu Xəzərdə “Şahdəniz” qaz-kondensat yatağından 60 kilometrlik, Səngəçal terminalından 145 kilometrlik məsafə ayırır.

“Şəfəq-Asiman” dənizin dərinsulu hissəsində yerləşir. Burada suyun dərinliyi 600-800 metr arasında dəyişir. Kollektorun dərinliyi isə 7000 metrə çatır. Blok təxminən 1100 kvadratkilometr ərazini əhatə edir. Burada son illərədək heç bir geoloji kəşfiyyat işləri aparılmayıb. Lakin 2010-cu ilin oktyabr ayında Bakıda SOCAR və BP arasında strukturun birgə geoloji kəşfiyyatı və işlənməsinə dair Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalanıb. HPBS-yə görə, BP və SOCAR iştirak paylarını tən yarı bölürlər.

2012-ci ilin əvvəlində “Gilavar” seysmik tədqiqat gəmisinin mütəxəssisləri strukturda aparılan üçölçülü seysmik məlumatların əldə olunması proqramını başa çatdırıblar. Sonra həmin məlumatların emalı aparılıb. 2015-ci ildə məlumatların interpretasiyası yekunlaşıb və ilk kəşfiyyat quyusunun planlaşdırılmasına başlanıb.

A.Cavadova, həmçinin qeyd etdi ki, indi bu işlər layihələndirmənin axırıncı mərhələsindədir. Cari ilin dördüncü rübündə kəşfiyyat quyusunun qazılmasına başlanacağı gözlənilir. Belə ki, hazırda “Total” şirkətinin “Abşeron” yatağında apardığı işlər başa çatdıqdan sonra qazma qurğusu “Şəfəq-Asiman”a gətiriləcək.

***“Azərbaycan”***

## Ukrayna şirkəti Azərbaycanla əməkdaşlığa maraq göstərir

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzPROMO) sahibkarlara müraciət edib.

AzPROMO-dan verilən məlumata əsasən, Ukraynanın “AZMOL-Britiş Petrokemikals Ukrayna - Britaniya Birgə müəssisəsi” MMC ölkəmizdə fəaliyyət göstərən iş adamları ilə əməkdaşlıqda maraqlıdır. Şirkət Azərbaycan istehlakçıları üçün mühərrik yağlarının tədarükü sahəsində qarşılıqlı sərfəli layihələr həyata keçirməyi təklif edir.

Müəssisə Ukraynanın qeyri-kimyəvi müəssisəsi olaraq 80 ildən çoxdur ki, hər növ mühərrik avadanlıqları üçün müxtəlif sürtkü-soyuducu mayelərin istehsalı sahəsində ixtisaslaşıb.

## Təbii qaz abonentlərinin sayı 2,2 milyondan çoxdur

Bu ilin yanvar-may aylarında “Azəriqaz” İstehsalat Birliyində (İB) əhali sektoru üzrə 43 min 153 yeni abonent qeydiyyata alınıb ki, bunun da 21 min 240-ı Bakı, Abşeron və Sumqayıt, 21 min 913-ü isə regionlar üzrədir.

Yeni abonentlərin sayının artmasına abonent bazasının daha da genişləndirilməsi istiqamətində işlərin aparılması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpa edilməsi, həmçinin təbii qazla təmin olunmuş ərazilərin genişlənən hissələrindəki fərdi yaşayış evlərinin qazlaşdırılması səbəb olub.

Bundan başqa, Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması məqsədilə qaz kəmərlərinin yenidən qurularaq şəbəkənin genişləndirilməsi istiqamətində görülən məqsədyönlü işlər öz müsbət nəticəsini göstərib. Aparılan işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 226 min 675-ə çatıb.

## Mütəxəssislərimiz Almaniyada keçirilmiş təlimlərə qatılıblar

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin “Cənubi Qafqaz Şəhərlər Şəbəkəsi” layihəsi çərçivəsində “Azərsu” ASC-nin mərkəzi laboratoriyasının və Hövsan Aerasiya Stansiyasının mütəxəssisləri Ludviqşafen şəhərində keçirilmiş təlimlərdə iştirak ediblər.



ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, “Tullantı sularının analizi” mövzusunda keçirilən təlimlərdə mütəxəssislər Almaniyanın bu sahədəki təcrübəsi ilə yaxından tanış olub, nəzəri və praktiki biliklər əldə edib, eləcə də tullantı su laboratoriyalarında birgə analizlər aparıblar.

Təlimlərdə tullantı sutəmizləyici qurğuların istismarı, laboratoriyalarda aparılan analizlər, ekologi təhlükəsizlik və sair məsələlərlə bağlı bilgilər verilərək müasir texnologiyaların tətbiqi ilə əlaqədar müzakirələr aparılıb. Səfər müddətində təlim iştirakçıları bu sahə üçün kadrlar hazırlayan təhsil müəssisəsində də olublar.

Təlim dövründə Almaniyanın “BASF” korporasiyasının tullantı sutəmizləyici qurğularına səfər təşkil edilib. Burada məişət və sənaye tullantı sularının təmizlənmə texnologiyaları, tullantı sularının tərkibinə nəzarət edən laboratoriyanın fəaliyyəti ilə bağlı geniş bilgi verilib, laboratoriyada quraşdırılmış avadanlıqlar, onların iş prinsipi barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

“Azərsu” ASC-nin mütəxəssislərinin Bad-Dürkhaym və Şpayer şəhərlərinin tullantı sutəmizləyici qurğularına da səfərləri təşkil edilib. Mütəxəssislər bu qurğularda tullantı sularının təmizləmədən əvvəlki və sonrakı tərkibinə nəzarət sistemilə tanış olublar. “Azərsu” ASC-nin əməkdaşları ilə Lüdviqşafen şəhərinin tullantıların idarə edilməsi və kanalizasiya müəssisəsinin rəhbəri Peter Nebel ilə də görüş keçirilib.

Qeyd olunub ki, Lüdviqşafen 1977-ci ildən Sumqayıt şəhəri ilə qardaşlaşmış şəhərdir. Artıq bir neçə ildir ki, “Azərsu” ASC Lüdviqşafen şəhərinin su təchizatı və kanalizasiya müəssisələri ilə təcrübə mübadiləsi sahəsində əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində qarşılıqlı səfərlər təşkil olunur, təlim proqramları həyata keçirilir.

Ötən müddətdə almaniyalı mütəxəssislərin Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksinə, Hövsan Aerasiya Stansiyasına və digər qurğulara səfərləri təşkil edilib. Bu ilin payızında Ludviqşafen şəhərinin kanalizasiya müəssisəsi ekspertlərinin Azərbaycana səfəri gözlənilir. Səfər müddətində almaniyalı mütəxəssislər tərəfindən laboratoriya əməkdaşları üçün təlimlər də keçiriləcək.

## Kiçik və orta sahibkarların maarifləndirilməsi davam edir

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə iyunun 12-də sahibkarlar üçün növbəti onlayn maarifləndirici tədbir keçiriləcək. Budəfəki maarifləndirici tədbir sahibkarların kommunal xidmətlərə qoşulması və bu sahədə həyata keçirilən xidmətlərə həsr olunacaq.

KOBİA-dan bildirilib ki, Azərbaycan Dövlət İqtisad Universitetinin dəstəyi ilə təşkil olunacaq onlayn tədbirdə “Azərişıq” ASC, “Azəriqaz” İstehsalat Birliyi, “Azərsu” ASC, “Azərenerji” ASC və “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin nümayəndələri müvafiq sahələrdə kommunal xidmətlərə qoşulma, bu sahədə göstərilən xidmətlər, qanunvericiliyə edilmiş dəyişikliklər barədə sahibkarların suallarını cavablandıracaqlar.

Tədbirə ölkənin istənilən yerindən internetə çıxışı olan kompüter, planşet və mobil telefondan istifadə olunmaqla qoşulmaq mümkündür. KOBİA-nın ölkənin 13 şəhər və rayonunda fəaliyyət göstərən KOB dostları onlayn tədbirə qoşulmaq istəyən sahibkarlara hər cür dəstək göstərəcək.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Qeyd edək ki, KOBİA-ya sahibkarlardan daxil olan müraciətləri və onların məlumatlandırmaya olan ehtiyaclarını nəzərə alaraq mütəmadi olaraq onlayn maarifləndirmə tədbirləri təşkil edir. İndiyədək təşkil olunmuş onlayn maarifləndirici tədbirlərdən 1500-dən çox sahibkar yararlanıb.

# REGİONLAR



## Yaşayış məntəqələri abadlaşır, yeni müəssisələr yaradılır, istehsal artır, güzəran yaxşılaşır




İnkişafı, abadlığı ilə seçilən rayonlar sırasında Ağsunun da özünəməxsus yeri var. Relyefinə görə dağlıq, dağətəyi və aran hissələrinə ayrılması onun potensialını artırır.









Bir zamanlar köhnə binaları, səliqəsiz küçələri ilə tanınan Ağsu şəhəri indi qonaqlar üçün də sevilən məkana çevrilib. Özü də söhbət yalnız şəhərin mərkəzindən getmir. Kəndlər də yenilənir, abadlaşır. Əldə olunan bu uğurlarda regionların sosial-iqtisadi inkişafı dövlət proqramları mühüm rol oynayıb.

Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev qazanılan uğurların onları arxayın salmadığını deyir. Regionların inkişafı ilə bağlı IV Dövlət Proqramının ilk ilinə uğurla start verildiyini və gözləntilərinin çox olduğunu bildirib qeyd etdi ki, bu il IV Dövlət Proqramında Ağsu rayonu üzrə bir cox vacib layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Bunlar çoxşaxəlidir. Onlara misal olaraq sənayenin inkişafı istiqamətində limonad və şərab istehsalı sahəsinin, kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsində müasir heyvandarlıq təsərrüfatlarının, yem və toxum istehsalı kompleksinin yaradılması göstərilə bilər. Paralel olaraq proqram çərçivəsində 1500 hektar sahədə əkinçilik təsərrüfatı, yaş baramanın qurudulması üçün yığım məntəqələri yaradılacaq. Ağsu-Ağarx-Rəhimli-Qaradağ avtomobil yolu yenidən qurulacaq, eləcə də Təklə, Bəyimli, Ağarx, Aratlı Curuğlu, Qaraqoyunlu, Musabəyli və Pirhəsənli kəndlərində subartezian quyuları qazılacaq. Bunlardan savayı, işsiz olan əmək qabiliyyətli şəxslər özünüməşğulluq proqramına cəlb olunacaqlar.

Təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində də işlər davam edəcək. Bu sırada Ərəbuşağı kənd, Ağsu şəhər 2, 4 və 5 nömrəli tam orta məktəblərin əsaslı təmiri, İlxıçı kənd tam orta məktəbi üçün yeni binanın tikintisi, Rəhimağalı, Xatman, Qasımbəyli kənd modul tipli ibtidai məktəblərin inşası və bir cox digər sosial layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Qeyd olunanlardan əlavə, cari ildə Kalva kəndi ərazisində (Bakı-Şamaxı-Yevlax magistral yolunun yaxınlığında) avtoturistlərin qəbulu, yerləşdirilməsi və onlara müxtəlif xidmətlərin göstərilməsi məqsədilə Pitstop obyektinin tikintisinə başlanılacaq.

Ə.Seyidəliyev deyir ki, Ağsuda aqrar sektorun inkişafına da ciddi diqqət yetirilir. "Aqroparklar yaradılır, ənənəvi sahələr dirçəldilir. Ərəbsarvan kəndində ümumi ərazisi 1250 hektardan çox olan "Ağsu Aqropark" QSC qurulur. Burada torpaqların münbitliyi artırılıb, genişmiqyaslı drenaj kanalları bərpa edilərək şoranlıq problemi həll olunub. Həmçinin 500 hektar sahədə pivot suvarma sistemi yaradılıb, 40-a yaxın müasir maşın, traktor, kombayn və 100-dən çox avadanlıqdan ibarət nəqliyyat-texnika parkı inşa olunub. Maşınların hər biri müvafiq qoşqu və aqreqatlarla təmin edilib. 1000 baş cins südlük inəklərin saxlanılması üçün 6, bir o qədər də ətlik heyvanlar üçün müasir, yarıaçıq 4 tövlə tikilir. İl ərzində 4 milyon litr süd, 600 ton ət istehsalı nəzərdə tutulur. Parkın ərazisində hər biri 1500 tonluq 6 və hər biri 150 tonluq 10 silos quyusu, istehsal gücü saatda 10 ton olan yem zavodu və istehsal gücü saatda 5 ton olan toxum fabriki də tikilir".

RİH başçısının sözlərinə görə, "Ağsu Aqropark" QSC istifadəyə verildikdən sonra orada 200 nəfərdən çox insanın daimi işlə təmin olunması nəzərdə tutulub.

Rayonda infrastruktur layihələrinə də ciddi əhəmiyyət verilir. Təkcə cari ilin yanvar-mart aylarında rayon üzrə 98 fərdi mənzilə qaz verilib. Qırlar, Quzey, Sanqalan, Zərqava, Yenikənd və Kövlüc kəndlərinə də qaz çəkilib və hazırda sayğaclaşma işləri aparılır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

## Tərtər kümçüsünün hədəfi 20 ton baramadır

Cəbhə bölgəsi olan Tərtərin sosial-iqtisadi inkişafının dinamik xarakter almasına, rayon sakinlərinin həyat şəraitinin, güzəranının yaxşılaşmasına dövlət səviyyəsində böyük diqqət yetirilir.



Tərtərlilər də, öz növbəsində, əmək cəbhəsində nümunə göstərir, qazandıqları nailiyyətlərlə ölkə iqtisadiyyatının güclənməsinə sanballı töhfələr verirlər.

İndi Tərtər kəndlisinin qayğılı günləridir. Pambıq tarlalarında, taxıl zəmilərində, heyvandarlıq sahəsində iş başdan aşır. Həmçinin baramaçılıqda məsul dövrdür. Son illər bu sahədə böyük uğurlara imza atan Tərtər kümçüləri cari ildə rekord miqdarda barama istehsal etmək əzmindədirlər.

"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr rayonda konkret fəaliyyət proqramına çevrilib. Son 3 ildə baramaçılığın yem bazasını möhkəmləndirmək üçün təsərrüfatlarda 228 min tut tingi əkilib. Çəkilən zəhmətin, qarşıya qoyulan vəzifənin icrasına məsuliyyətli münasibətin nəticəsidir ki, rayonda baramaçılıq yüksələn xətlə inkişaf edir. 2017-ci ildə Tərtər üzrə 4.610, 2018-ci ildə 10.228 kiloqram barama istehsal olunub, iki ildə barama istehsalı 2,2 dəfə artıb. Bu ilin hədəfi isə 20 ton barama tədarük etməkdir. Həmin hədəfə çatmaq üçün bütün qüvvələr səfərbərdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Yollar daim diqqət mərkəzindədir

Şimal bölgəsinin iqtisadi əhəmiyyətli rayonlarından biri Şabrandır. Turizm potensialının daşıyıcısı olan Şabranda ilin bütün fəsillərində xarici ölkələrdən gəlmiş qonaqlarla rastlaşmaq mümkündür. Həm də bu üzdən Bakı-Rostov magistral yolunun üstündə yerləşən rayonun yol infrastrukturu daim diqqət mərkəzindədir.



Şabran 3 saylı Yol İstismarı MMC 2008-ci ildən fəaliyyət göstərir. İdarənin rəisi Rafiq Kərimovun sözlərinə görə, MMC rayon ərazisindəki 165 km yerli əhəmiyyətli və 41 km respublika əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri işləri ilə məşğuldur. Magistral yolda təmir işləri, demək olar ki, başa çatıb. Ağır yük maşınlarının yolda yaratdığı çalalar doldurulmuş, bəzi yerlər tamamilə yenidən təmir edilərək asfaltlanmışdır.

Rayon mərkəzində də yollar təmir olunur. Giriş və çıxış yolları asfaltlanaraq ideal vəziyyətə gətirilmişdir. Yol kənarlarında həmçinin yaşıllaşdırma işləri görülmüş, səkilər çəkilmişdir. İstinad divarlarına rayonun tarixini əks etdirən lövhələr vurulmuş, rəng müxtəlifliyi incə zövqlə seçilmişdir.

Şabranın kəndarası yolları da unudulmayıb. Hazırda Şabran-Sarvan-Çayqaraqaşlı-Hacıqaraqaşlı, Şabran-Udulu, Şabran-Baş Əmirxanlı-Qazbabalı, Şabran-Düzbilici-Çinarlar avtomobil yollarında əsaslı təmir işləri gedir. Şabran-Sarvan-Çayqaraqaşlı-Hacıqaraqaşlı yolunun 39 kilometrinin alt qat işləri tamamlanıb və həmin yolun asfalt örtüyünün çəkilməsinə başlanılıb. Şabran-Baş Əmirxanlı-Qazbabalı, Şabran-Düzbilici-Çinarlar yollarında isə alt qat işləri aparılır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Biləsuvarda arpa sahələrinin hər hektarından 30 sentner məhsul götürülür

Biləsuvarlı fermerlər taxıl biçinini qısa müddətdə və itkisiz başa çatdırmaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu il biləsuvarlı fermerlər 28 min 613 hektar sahədə taxıl becəriblər. Bitkiyə aqrotexniki qaydada qulluq edildiyindən sahələrdə bol məhsul yetişib.

Məhsul yığımına mütəşəkkil başlayan əkinçilər artıq arpa biçinini başa çatdırmaq üzrədirlər. Fermerlər bu günə kimi 14 min 900 hektar arpa sahəsinin 12 min 956 hektarında biçin aparıblar. Sahələrin hər hektarından orta hesabla 30 sentnerdən çox məhsul götürülüb. Ayrı-ayrı təsərrüfatlarda isə məhsuldarlıq ümumi rayon göstəricisindən xeyli yüksək olub.

Fermer Rüstəm Əzizov becərdiyi 52 hektar taxıl sahəsinin hər hektarından 45 sentner məhsul götürərək digər torpaq mülkiyyətçilərindən fərqlənib.

Qeyd edək ki, Biləsuvarın taxıl sahələrində hazırda 62 taxılyığan kombayn işləyir.

## Bu il oğuzlu fermerlər 110 hektarda tütün yetişdirirlər

Oğuz rayonunun təsərrüfatlarında tütün əkini başa çatıb. Cari mövsümdə oğuzlu fermerlər 110 hektarda tütün yetişdirirlər.



Bu barədə AZƏRTAC-a Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Akif Adıgözəlov məlumat verib.

Qurum rəsmisi bildirib ki, tütün istehsalçılarının işini asanlaşdırmaq məqsədilə ötən il rayonun Bucaq kəndində 10, Bayan kəndində isə 23 ədəd tütünqurutma kamerası quraşdırılaraq fermerlərin istifadəsinə verilib. Tələbatı nəzərə alaraq, bu kəndlərdə əlavə olaraq 12 ədəd tütünqurutma kamerasının quraşdırılması nəzərdə tutulur.

Əvvəlki illər oğuzlu fermerlər yetişdirdikləri yaşıl tütün kütləsini qurutmaq üçün qonşu rayonlarda fəaliyyət göstərən emal məntəqələrinə aparmaq məcburiyyətində qalırdılar. Bu isə əlavə vaxt itkisinə, artıq xərclərə və məhsulun keyfiyyətinin aşağı düşməsinə səbəb olurdu.

Xatırladaq ki, 2018-ci ildə Oğuz rayonunda 377,4 ton quru tütün istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə 88 ton artıb.

## Ölkə üzrə süni mayalanmadan 90 min baş bala alınıb






Azərbaycanda heyvandarlığın inkişafını təmin etmək məqsədilə həyata keçirilən tədbirlər nəticəsiz qalmır. Xüsusilə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işlər çərçivəsində heyvan mənşəli məhsulların istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalanma tədbirlərinin həyata keçirilməsini sürətləndirmək məqsədilə çox işlər görülür.

Prezident İlham Əliyevin 2014-cü ildə Respublika Süni Mayalanma Mərkəzinin yenidən qurulması ilə bağlı verdiyi sərəncam bu gün heyvandarlığın sürətli inkişafi istiqamətində öz səmərəsini verir.

Sərəncama uyğun olaraq Göygöl rayonu ərazisində 3,26 hektar torpaq sahəsi ayrılmış və burada qabaqcıl texnologiyalara əsaslanan müasir Süni Mayalanma Mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyəti üçün inşa edilmiş ikimərtəbəli binada laboratoriya, təlim mərkəzi, toxumun alınması üçün manej, eləcə də heyvanların saxlanması üçün yer və digər xidmətlər fəaliyyət göstərir.

Hər ili uğurlu göstəricilərlə başa vuran Respublika Süni Mayalanma Mərkəzinin kollektivi keçən il də yüksək göstəricilərə nail olmuşdur. Mərkəzin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Ramiq Abbasovla söhbətdən məlum oldu ki, keçən il ölkə üzrə 157 min 139 baş buzov süni yolla mayalandırılmış və nəticədə 90 min bala alınmışdır. 60 min nəfərə hər balaya görə dövlət tərəfindən 100 manat subsidiya verilmişdir.

Mərkəzdə bütün işlər şəffaflıqla həyata keçirilir. Məsələn, hər bir fermer əldə olunmuş toxumun keyfiyyəti barədə qabaqcadan məlumat almaq imkanına malikdir. Belə ki, mərkəzdə quraşdırılmış "İVOS-II" cihazı vasitəsilə süni mayalanmada istifadə edilən toxumun mənşəyi və keyfiyyəti barədə hər bir fermerə ətraflı məlumat verilir. Hətta aparat rayonlara göndərilən toxumların tərkibi haqqında da fermerlərin mobil telefonuna məlumatlar ötürür. Bundan başqa, mərkəzə alınmış yeni səyyar laboratoriya, həmçinin maye azotu daşımaq üçün ixtisaslaşdırılmış "MAN" avtomaşını da fermerlərin ixtiyarına verilmişdir.

Hazırda mərkəzdə 6 cins üzrə 37 törədici buğa var. Həmin buğalar Almaniyadan və Avstriyadan gətirilib. Buğalardan götürülən toxumlar xüsusi cihazlarda saxlanılır ki, bu da onların keyfiyyətinə zəmanət verir.

Hazırda süni mayalanmada istifadə olunan maye azot mərkəzin özündə istehsal olunur. Halbuki əvvəllər maye azot müxtəlif yerlərdən alınırdı ki, bu da çox xərc tələb etməklə yanaşı, bəzi hallarda keyfiyyətsiz olduğundan toxumun uzun müddət saxlanmasına imkan vermirdi.

Mərkəzin direktoru onu da əlavə etdi ki, əhali ən çox ətlik istiqamətində doğulan balalara üstünlük verir. Bu istəyi nəzərə alaraq yaxın vaxtlarda mərkəzə ətlik istiqamətində olan "Aberzun-anqus" və "Şarole" cinsli buğaların gətirilməsi üçün danışıqlar aparılır. Eyni zamanda gələcəkdə Zebu cinsindən olan buğaların, eləcə də Bolqarıstandan "Murrah" cinsli camışların alınması da diqqətdə saxlanılır.

Mərkəzdə heyvanların yem rasionuna xüsusi diqqətlə yanaşılır. Bunun üçün mərkəzə ayrılmış 60 hektar əkin sahəsinin 45 hektarında arpa, 9 hektarında buğda, 6 hektarında qarğıdalı əkilir. Məhsulun saxlanması üçün anbar və yemin emalı üçün sex də inşa edilmişdir.

Kadr hazırlığına da ciddi yanaşılır. Buradakı təlim mərkəzində təşkil olunmuş kurslarda mütəxəssislər öz biliklərini artırırlar. Bu yaxınlarda FAO təşkilatının (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) xətti ilə növbəti təlimlərə başlanacaq. Kursda bütün bölgələrdən 50 nəfərədək zootexnik və baytar iştirak edəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Zərdabda hələlik 50 tondan çox barama təhvil verilib

Zərdab rayonunda yaş barama tədarükü davam edir və kümçülər hələlik 50 tondan çox məhsul təhvil veriblər.



Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, cari mövsümdə 3800 nəfəri əhatə edən 760 ailə tərəfindən 1750 qutu ipəkqurdu toxumu bəslənilib və bol məhsul yetişdirilib. Onlarca təcrübəli kümçü bu mövsümdə yüksək göstəriciyə nail olub. Belə ki, Gəlmə kəndindən Teymur Teymurzadə 476 kiloqram, Alıcanlıdan Əlişah Cavadov 415 kiloqram, Nəzəralılıdan Surxay Xəlilov 327 kiloqram, Məmmədqasımlıdan Rəşad Rəşidov 258 kiloqram bol məhsuldarlıq əldə ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin baramaçılığın inkişafı ilə bağlı qarşıya qoyduğu konkret vəzifələrin icrası istiqamətində son illər Zərdabda ardıcıl tədbirlər həyata keçirilir və uğurlu nəticələr qazanılır. Təkcə keçən il rayon kümçüləri 1300 qutu (24700 qram) inkubasiya olunan ipəkqurdu toxumu qəbul edərək normal bəsləmə aparıblar. Nəticədə 53 ton 880 kiloqram barama tədarük edərək respublikada ən yüksək göstəriciyə nail olublar. Bu il də yaxşı nəticə gözlənilir. Belə ki, mütəxəssislər cari mövsümdə 70 ton yaş barama tədarük olunacağı qənaətindədirlər.

## Tovuzda yaş baramanın tədarükünə başlanılacaq



"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident İlham Əliyevin 2017-ci il 27 noyabr tarixli sərəncamının icrası ilə əlaqədar olaraq Tovuz rayonunda məqsədyönlü işlər görülüb.

AZƏRTAC xəbər verir ki, ötən il rayonda 9 ton 781 kiloqram barama istehsal edilib.

Bu, 2017-ci ildəkindən 2911 kiloqram çoxdur. Bu il isə kümçülər tərəfindən 13 min kiloqram yaş baramanın yetişdirilməsi nəzərdə tutulub.

Hazırda rayonun Aşağı Öysüzlü, Yuxarı Öysüzlü, Cəlilli və Düz Cırdaxan kəndlərinin kümçüləri barama yetişdirməklə məşğuldurlar.

Kümçülər bildiriblər ki, respublikada ipəkçiliyin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər rayon baramaçılarının bu sahəyə olan marağını xeyli artırıb.

# Respublika Yaradıcılıq Festivalının qalibləri mükafatlandırılıb

İyunun 10-da Beynəlxalq Muğam Mərkəzində 2018-2019-cu tədris ilində məktəblilərin Respublika Yaradıcılıq Festivalı qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesindəki rəsm sərgisi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov xüsusi fəallığı ilə fərqlənən istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların gələcəkdə ixtisas və peşə seçiminə kömək göstərilməsi, eləcə də ümumtəhsil məktəblərinin müvafiq sahələr üzrə sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsi baxımından müsabiqələrin əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, festivalda respublikanın 598 ümumtəhsil məktəbindən 5 min 306 məktəbli iştirak edib.

Nazir müavini Respublika Yaradıcılıq Festivalı ilə bağlı fikirlərini bildirib, qalibləri təbrik edib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev müsabiqənin məktəblilərin ekoloji düşüncə tərzi və ekoloji mədəniyyətinin formalaşması, ətraf mühitin mühafizəsi, ekoloji təcrübə sahəsində fəaliyyətlərinin artırılmasında xüsusi rol oynayacağını qeyd edib.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev festivalın məktəblilərin Azərbaycan xalq yaradıcılığı dəyərlərinə, dünya mədəniyyətinin ən yaxşı nümunələrinə marağının artırılması, onlarda mənəvi dəyərlərin formalaşması baxımından müsbət təsir göstərəcəyini bildirib.

Sonra festival qaliblərinin qiymətləndirilməsi nəticəsində dram, dekorativ-tətbiqi sənət və təsviri incəsənət, ekologiya nominasiyaları üzrə I, II və III yerlərə layiq görülmüş məktəblilərə diplom və hədiyyələr təqdim olunub.

Festival Təhsil, Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq keçirilib.

Festivalın keçirilməsində məqsəd məktəblilərdə yeni növ texnologiyalardan istifadə edərək yaradıcı təfəkkür və açıq düşüncə tərzinin formalaşdırılması, onlarda ixtisas və peşə seçim imkanlarını təmin edən bacarıqlar aşılanması, ümumtəhsil məktəblərinin sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsindən ibarətdir.

# Heydər Əliyev Mərkəzinin parkında Reza Deqatinin "Odun ruhu. Vizual səyahətə dəvət" sərgisi açılıb

İyunun 10-da Heydər Əliyev Mərkəzinin parkında tanınmış fotoqraf Reza Deqatinin "Odun ruhu. Vizual səyahətə dəvət" adlı sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək budəfəki sərgidə tanınmış fotoqrafın Azərbaycanın tarixinin, mədəniyyətinin müxtəlif dövrlərini əks etdirən fotolarından istifadə olunduğunu bildirib. O, Heydər Əliyev Fondunun layihələrində yaxından iştirakına görə müəllifə təşəkkürünü ifadə edərək deyib: "Reza Deqati hər zaman dünyanın qaynar nöqtələrində olub. Rəssamın əsərləri dünyanın müxtəlif ölkələrində, eləcə də Fransada keçirilən sərgilərdə nümayiş edilib. Onun fotoları vasitəsilə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilmişik. Bu fotolar vasitəsilə Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı, Qarabağ həqiqətləri, Xocalı faciəsi dünya ictimaiyyətinin diqqətinə çatdırılır".



Xoş sözlərə görə təşəkkürünü bildirən fotoqraf hələ 42 il bundan əvvəl Azərbaycanda olduğunu diqqətə çatdırıb. Ötən müddətdə dünyanın müxtəlif ölkələrini gəzdiyini deyən Reza Deqati Azərbaycandakı gördüyü inkişafdan riqqətə gəldiyini söyləyib. "Azərbaycan böyük mədəniyyətə malik ölkədir. Onun ən böyük zənginliyi insanlarıdır. Fondun dəstəyi ilə Azərbaycanı gəzmişəm və bu diyarın gözəlliklərini, zənginliyini, mədəniyyətini fotolarda əks etdirməyə çalışmışam. Bu dəstəyə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürümü bildirirəm", - deyə Reza Deqati qeyd edib.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Məşhur fotojurnalist Reza Deqati 40 ildən çoxdur ki, dünyanı gəzib dolaşır. Parisdə yaşayan və 30 kitabın müəllifi olan R.Deqatinin əsərləri bütün dünyada sərgilənir. "National Geographic" Cəmiyyətinin tədqiqatçısı olan Reza Deqati bir sıra beynəlxalq mükafatlar qazanıb. O, Missuri Universitetinin "Şərəf" medalına və Parisin Amerika Universitetinin fəxri doktoru adına layiq görülüb. Fransa hökuməti onu göstərdiyi xidmətlərə görə Milli Cəngavərlik Ordeni ilə təltif edib.

Reza Deqatinin əsərləri, eyni zamanda, Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bir sıra layihələrdə təqdim edilib. Fondun təşkilatçılığı ilə 2013-cü ildə Parisdə - UNESCO-nun mənzil-qərargahında Reza Deqatinin "Azərbaycan - tolerantlıq məkanı" adlı sərgisi açılıb. Həmin sərgi daha sonra Moskvada, eləcə də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında, Brüsseldə - Avropa Parlamentində nümayiş olunub. 2014-cü ildə isə Parisdə Reza Deqatinin "Azərbaycan - alovun zərifliyi" sərgisi keçirilib.

# II Avropa Oyunlarında Azərbaycanı altı könüllü təmsil edəcək





"Minsk 2019" II Avropa Oyunlarında iştirak edəcək Azərbaycan yığmasının üzvləri və nümayəndə heyəti ilə iyunun 10-da Milli Olimpiya Komitəsində (MOK) görüş keçirilib.

AZƏRTAC xəbər ki, tədbirdə Minskə yollanacaq millimizin üzvləri ilə yanaşı, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, qurumun baş katibinin müavini Azər Əliyev, həmçinin federasiyaların rəsmiləri iştirak ediblər.

Ç.Hüseynzadə bildirib ki, yığıncaqda əsas məqsəd nümayəndə heyətini vacib məsələlərlə bağlı məlumatlandırmaqdır. O, komanda üzvlərinin Minskdə qarşılanmaları və yarışda iştirak məsələləri barədə söhbət açıb. Bildirib ki, ölkəmizi "Minsk 2019"da idmançılarla yanaşı, 6 azərbaycanlı könüllü də təmsil edəcək. Həmçinin komandamızın qalacağı yer barədə də ətraflı məlumat verilib.

MOK-un vitse-prezidenti vurğulayıb ki, Oyunların açılış mərasimində idmançıların paradında Azərbaycan 80 nəfərlə təmsil olunacaq. Komandamız Minskə iyunun 18-də yollanacaq. Artıq qadın güləşçilərimiz Minskdə təlim-məşq toplanışındadırlar. Belarusa Bakıdan ilk olaraq cüdo, boks və atıcılıq yığmalarımız gedəcək.

Daha sonra "Minsk 2019" II Avropa Oyunlarında Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar Bağırov və müavini Ceyhun Rəhmanov Atletlər kəndi və asudə vaxtın dəyərləndirilməsi üçün yaradılan şərait, yarış obyektləri, Oyunlarda iştirak edəcək idmançıların sayı və idman növləri haqqında məlumat veriblər.

Sonda Azərbaycan Milli Antidopinq Agentliyinin əməkdaşı Lalə Hacıyeva "Minsk 2019" üçün antidopinq məsələləri və istifadəsi qadağan olunmuş preparat və məhsullar haqqında idmançıları məlumatlandırıb.

Sonra suallar cavablandırılıb.

Tədbir çərçivəsində MOK-un və Azərbaycan Milli Antidopinq Agentliyinin təmsilçiləri tərəfindən "Minsk 2019"la bağlı vacib məlumatlar diqqətə çatdırılıb.

İyunun 21-30-da keçiriləcək II Avropa Oyunlarında Azərbaycan idmanın 11 növü üzrə 82 atletlə təmsil olunacaq.

## XİN: "Azərbaycan Cənubi Osetiyada keçirilmiş qondarma "seçkiləri" tanımır"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Cənubi Osetiyada keçirilmiş qondarma "seçkilər"lə bağlı bəyanat yayıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir: "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edir və beynəlxalq hüququn kobud pozulması olan Cənubi Osetiyada keçirilmiş qondarma "seçkiləri" tanımır".

## XİN cəbhə xəttində hərbçimizin həlak olması ilə bağlı açıqlama yayıb

Azərbaycanın Xarici İşlər Nazirliyi cəbhə xəttində hərbçimizin həlak olması ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Bu gün Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobudcasına pozaraq törətdiyi növbəti təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu həlak olub.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə qarşıdan gələn növbəti görüşü ərəfəsində Ermənistanda müharibə tərəfdarları və onların himayədarlarının məqsədyönlü şəkildə törətdiyi növbəti qanlı əməl münaqişənin həlli üzrə aparılan danışıqları məhv etmək və bölgədə gərginliyi artırmağa xidmət edir".

Məlumatda vurğulanır ki, bu ssenarinin həyata keçirilməsinin tam məsuliyyəti Ermənistan və bu ölkənin rəhbərliyi üzərindədir.

## Azərbaycan UNESCO-nun Hökumətlərarası Komitəsinə üzv seçilib

Parisdə UNESCO-nun baş qərargahında keçirilən "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi haqqında" Konvensiyanın Tərəflərinin Konfransının 7-ci sessiyasında ölkəmiz mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

AZƏRTAC xəbər verir ki, sessiyanın sonuncu günündə 2019-2023-cü illər üçün "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi haqqında" Konvensiyanın Hökumətlərarası Komitəsinə seçkilər keçirilib.

Şərqi Avropa qrupundan öz namizədliyini irəli sürən Azərbaycan komitəyə 4 illik üzv seçilib.

Qeyd edək ki, Azərbaycandan əlavə komitəyə Avstriya, Danimarka, Braziliya, Ekvador, Sent Vinsent və Qrenadin, Monqolustan, Burkina Faso, Efiopiya, Seneqal, Qətər və Ermənistan da seçiliblər. 24 üzv ölkənin nümayəndələrini ildə bir dəfə hesabat xarakterli görüşə toplayan Hökumətlərarası Komitənin əsas funksiyası 2005-ci ildə qəbul olunmuş konvensiyanın tətbiq və təşviqinə təkan verməkdir.

# Fransada ölkəmizin gender bərabərliyi sahəsindəki nailiyyətlərindən danışılıb

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Parisdə Fransa Səhiyyə və Həmrəylik Nazirliyinin qadın hüquqları və gender bərabərliyi xidmətinin rəhbəri Elen Furnon-Petresku və bu ölkənin keçmiş gender bərabərliyi naziri Nikol Amelin ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, komitə sədri Azərbaycanda gender bərabərliyinin təmin olunması, qadın hüquqlarının müdafiəsi, qadın sahibkarlığının genişləndirilməsi və ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verib.

Görüşlərdə Azərbaycanda qadın hüquqlarının müdafiəsi, qadınlar üçün yaradılmış şərait, eləcə də gender bərabərliyi sahəsində əldə edilmiş nailiyyətlər fransalı mütəxəssislər tərəfindən alqışlanıb, bu sahədə ölkələrimiz arasındakı əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb. Hökumətimizin qadın məsələləri üzrə hesabatlarının təqdirəlayiq olduğu bildirilib, Azərbaycanın qadın siyasəti digər ölkələrə nümunə kimi dəyərləndirilib. Qadın məsələləri ilə məşğul olan assosiasiyaların fəaliyyətinə dair fikir mübadiləsi aparılıb.

Fransa Səhiyyə və Həmrəylik Nazirliyinin qadın hüquqları və gender bərabərliyi xidmətinin rəhbəri Elen Furnon-Petresku, eləcə də Nikol Amelin qadın məsələləri sahəsində ikitərəfli əməkdaşlığın, görüşlərin daha da gücləndirilməsinin və təcrübə mübadiləsinin vacibliyini qeyd ediblər.

# UNEC-in təşkilatçılığı ilə gənclər üçün əmək yarmarkası təşkil olunub

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin dəstəyi, UNEC-in təşkilatçılığı ilə "Gənclər üçün Əmək Yarmarkası - 2019" keçirilib.



Park İnn Baku hotelində təşkil olunan yarmarkada gənclər və idman nazirinin müavini İntiqam Babayev, UNEC-in rektoru, professor Ədalət Muradov, Təhsil Nazirliyinin nümayəndəsi Şahin Bayramov və şirkət rəhbərləri iştirak ediblər.

Gənclərin məşğulluğunun təmin edilməsinə dəstək göstərmək məqsədilə təşkil olunan yarmarkada 50-yə yaxın şirkət və qurum tələbə, magistr, məzunlar, eyni zamanda əlilliyi olan şəxslər üçün 300-dən çox vakant iş yeri və təcrübə proqramı təklif ediblər. Yarmarkada daha çox iqtisadiyyat, maliyyə, bank, o cümlədən qida, inşaat sektorundan da nümayəndələr təmsil olunublar.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, əmək yarmarkalarının əsas ideyası ondan ibarətdir ki, tələbələr və məzunlar özlərinə iş tapa bilsinlər. Yarmarkaların təşkilinin məşğulluğa müsbət təsir edən uğurlu layihə adlandıran İ.Babayev şirkətlərin və vakansiyaların sayının ildən-ilə artdığını qeyd edib. Əmək yarmarkaları vasitəsilə minlərlə gənclərin daimi iş yeri və mövsümi işlərlə təmin olunduğunu diqqətə çatdırıb.

UNEC-in rektoru, professor Ədalət Muradov əmək yarmarkasının gənclərin öz ixtisaslarına uyğun olaraq iş tapmasında mühüm rol oynadığını bildirib: "Bizim tələbələrimiz öz istəklərinə və bacarıqlarına uyğun seçim etmək hüququ qazandılar. Bizim gözlədiyimiz məqsədlərdən biri də odur ki, vakansiya ilə gəlmiş şirkətlərin tələblərini, onların irəli sürdükləri peşə vərdiş və bacarıqlarına dair istəklərini öyrənərək tədris proqramına daxil edək. Əminəm ki, burada iştirak edən tələbələrin böyük qismi işlə təmin olunacaq və yaxud təcrübə qazanacaqlar".

*"Azərbaycan"*

# Bakıda Ümumdünya Gömrük Təşkilatının Qeyri-intruziv yoxlama üzrə Ekspertlər Qrupunun 5-ci iclası keçirilir

İyunun 10-da Bakıda Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Qeyri-intruziv yoxlama üzrə Ekspertlər Qrupunun 5-ci iclası işə başlayıb.

Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, 31 ölkədən ekspert və nümayəndənin iştirak etdiyi seminarda çıxış edən komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov Qeyri-intruziv yoxlama üzrə Ekspertlər Qrupunun 5-ci iclasının Azərbaycanda keçirilməsinə görə ÜGT-yə təşəkkürünü ifadə edib. Qeyd olunub ki, gömrük nəzarətinin tənzimlənməsi prosesində ən vacib məsələlərdən biri də qeyri-intruziv yoxlamaların həyata keçirilməsi, onların tətbiqidir. Gömrük nəzarətinin sadələşdirilməsi, qısa zaman kəsiyində başa çatdırılması, həmçinin İKT ilə bağlı yeni texnologiyaların tətbiqi kimi məsələlərin müzakirəsinin faydalı olacağı diqqətə çatdırılıb. Komitə sədrinin müavini qeyd edib ki, müasir texnologiyaların, yeni avadanlıqların tətbiqi gömrük nəzarətinin təşkili prosesində həm vaxt, həm də vəsaitə qənaət baxımından çox əlverişlidir.

ÜGT-nin ekspertləri - Vyara Filipova və Milena Budimirovic çıxışlarında ölkələrarası məlumat mübadiləsinin aparılmasını, yeni ekspertlərin hazırlanmasını, mövzu ilə bağlı təlimlərin təşkil edilməsinin vacib məsələ olduğunu bildiriblər.

İki gün davam edəcək seminarda Qeyri-intruziv yoxlama üzrə Ekspertlər Qrupunun 4-cü iclasının hesabatı dinləniləcək, Vahid Fayl Formatı (UFF) İnkişafı Proqramının 2-ci mərhələsi üzrə görülən işlər barədə məlumat veriləcək, UFF İnkişaf Proqramının 3-cü mərhələsinin əhatə dairəsi və digər məsələlər müzakirə ediləcək.

Eyni zamanda, seminarda müxtəlif ölkələrin qeyri-intruziv yoxlama sahəsindəki təcrübələrinə dair təqdimatlar da keçiriləcək.

# "Turquie" portalı: "Fransa məhkəməsinin qərarı yolunu azmış bəzi yerli hakimiyyət orqanları rəsmilərinin sonunu gətirəcək hüquqi presedentdir"

Fransa ədliyyə orqanları bu ölkənin Arnuvil şəhəri və Azərbaycan Respublikasının 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu təmsil edən Şeher inzibati bölgəsi arasında imzalanmış "dostluq xartiyası"nı qeyri-qanuni elan edib və onu ləğv edib.

AZƏRTAC xəbər verir ki, bu məsələyə Fransanın "Turquie" portalında dərc olunmuş məqalədə geniş diqqət ayrılıb.

Məqalədə deyilir: "Bu, Azərbaycanın işğal edilmiş torpaqlarında formalaşdırılmış qondarma qurumla həmrəylik nümayiş etdirmək naminə bitərəflik prinsiplərinə qəsdən məhəl qoymamaq yolunu seçən, yolunu azmış bəzi yerli seçkili və bir sıra yerli hakimiyyət orqanları rəsmilərinin sonunu gətirəcək hüquqi presedentdir. Serji-Pontuaz inzibati məhkəməsi "Fransanın beynəlxalq öhdəliklərinə hörmət etmir" və "Dövlətin müstəsna səlahiyyəti olan Fransanın xarici siyasətinə qarşı çıxır" arqumentlərini rəhbər tutaraq sözügedən xartiyanı ləğv edib.

Xatırlatmaq lazımdır ki, 1993-cü il dekabrın 20-də Fransa ilə Azərbaycan arasında imzalanmış "Dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə"nin 2-ci maddəsində tərəflər beynəlxalq təhlükəsizliyin təmin edilməsi, münaqişələrin qarşısının alınması, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn rəhbər tutulması, beynəlxalq səviyyədə tanınmış sərhədlərin pozulmaması prinsipinə hörmət edilməsi naminə səylərini birləşdirəcəklərinə dair üzərlərinə öhdəliklər götürüblər.

Fransanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, ilk növbədə, vurğulamaq lazımdır ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörməti təsdiq edən, Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş qətnamələr rəsmi Paris tərəfindən dəstəklənib.

Bundan başqa, suveren dövlətin milli birliyini və ərazi bütövlüyünü pozmaq məqsədi daşıyan, eyni zamanda, qovma və ya etnik təmizləmə həyata keçirməklə bir araya sığmadığı yenidən təsdiqlənmiş "xalqların öz müqəddəratını təyinetmə hüququ"ndan istifadəyə icazə verməyən beynəlxalq hüququn prinsiplərinə hörmət etmək lazımdır.

Bununla yanaşı, işğal olunmuş ərazilərdən zorla qovulmuş yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını tələb edən insan hüquqları prinsipi və beynəlxalq humanitar hüququn prinsiplərinə hörmət edilməli, onlar öz yurdlarına, evlərinə geri qaytarılmalı, kəndlər və şəhərlər ən qısa zamanda bərpa edilməlidir. Söhbət 1989-cu ildə əhalinin təqribən 24 faizini təşkil edən 40 min azərbaycanlının Dağlıq Qarabağdan, həmçinin 1992-1993-cü illərdə işğal edilmiş Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan qovulmuş azərbaycanlılardan gedir.

Bu şərtlər altında seçkili və ya yerli hakimiyyət orqanları tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış və Fransa tərəfindən tanınmayan qeyri-qanuni separatçı qurum olan qondarma "Dağlıq Qarabağ Respublikası"nı təmsil edən yerli orqanlarla "dostluq xartiyaları"nın imzalanması Fransanın beynəlxalq fəaliyyətinin ardıcıllığını ciddi şəkildə sarsıdır və xalqlar arasında qarşılıqlı anlaşmanın təməlini, o cümlədən beynəlxalq diplomatik münasibətlərin inkişafının harmoniyasını təhdid edir.

1997-ci ilin yanvarından bəri ABŞ və Rusiya ilə birlikdə ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın öhdəlikləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həllinin tapılmasını təşviq edir və "qanunsuz xartiyalar"ın ləğvinə dair Fransa hökumətinin möhkəm mövqeyi təkcə Ermənistan və Azərbaycanda deyil, eləcə də Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyə təhdid olan və uzun müddət davam edən bu çıxılmaz vəziyyəti irəli apara bilər.

Münaqişənin ədalətli həlli yalnız region ölkələrinin deyil, Fransa da daxil olmaqla avropalı tərəfdaşların faydalanacağı Cənubi Qafqaz regionunun dayanıqlı inkişafı və geniş regional əməkdaşlıq üçün əlverişli şərait yaradacaq".

# Dağlıq Qarabağın azərbaycanlı icması beynəlxalq təşkilatlara daha bir çağırış ünvanlayıb

## Ermənilərin işğalı altında olan ərazilərdə Azərbaycan xalqının milli irsinin məhv edilməsinə göz yummayın!

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması erməni işğalı altında olan ərazilərimizdə məhv edilən tarixi, mədəni, dini irsimizlə bağlı beynəlxalq auditoriyaya daha bir çağırış ünvanlayıb. Sosial medianın tələbləri nəzərə alınmaqla ingilis dilində hazırlanan videomüraciət bu dəfə də Azərbaycan hökumətinin qərarı ilə "Azərbaycandakı tarixi abidələrin milli qeydiyyatı" siyahısına daxil edilən Bakıdakı erməni kilsəsindən bəhs edir.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyindən məlumat verilib.

Videomüraciətdə Azərbaycan xalqının multikulturalizm ənənələrinə sadiq qaldığı vurğulanaraq bildirilir ki, Bakının mərkəzində erməni kilsəsi və bu kilsəyə aid olan ədəbiyyatlar qorunub saxlanıldığı halda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və işğal altında olan ətraf rayonlarda tarixi, mədəni, dini abidələr məhv edilir, qədim məscidlərin üzərindəki daş kitabələr dəyişdirilərək onların tarixi saxtalaşdırılır. Ermənilər hətta XIX əsrdə Şuşada rus hərbçiləri üçün tikilmiş pravoslav kilsəsinin arxitekturasını dəyişərək özününküləşdiriblər. Beynəlxalq təşkilatların və onların rəhbərlərinin ünvanlarına göndərilən müraciətdə əsas məqsəd diqqəti ermənilərin vandal hərəkətlərinə yönəltmək, işğal altında olan ərazilərimizdə tarixi, mədəni abidələrimizin dağıdılmasına son qoymağa nail olmaqdır.

# "Könüllü olaraq şəhid övladlarının yanındayıq"

## "Relslər üzərinə uzanmış adam" xeyirxahları bir araya gətirmək missiyası daşıyır

Bakı Beynəlxalq Mətbuat Mərkəzində "Şəhid övladları və kimsəsiz uşaqlara yardım" İctimai Birliyinin təşkil etdiyi tədbir belə adlanırdı: "Könüllü olaraq şəhid övladlarının yanında olaq". Tədbirin təşkilində məqsəd bu xeyirxahlıq missiyasının daha geniş auditoriyada ictimailəşdirilməsi, kimsəsiz, şəhid ailələrində böyüyən uşaqların sosial müdafiəsinin gücləndirilməsinə dəstək mahiyyəti daşıyırdı.







Çünki şəhid uşaqlarının sağlam böyümələri, təhsil və digər sahələrdəki mövcud problemlərinin həllində dövlətlə yanaşı, QHT-lərin, ayrı-ayrı iş adamları və xeyriyyəçilərin də fəallığının təmin edilməsi bu gün öz aktuallığı ilə seçilir.

"Şəhid övladları və kimsəsiz uşaqlara yardım" İctimai Birliyinin sədri, "Azərbaycan Bayrağı" ordenli Aprel şəhidi, pilot-mayor Təbriz Musazadənin həyat yoldaşı Pərişan Musazadə tədbirin məqsədini diqqətə çatdırdı: "Açığı, 3 ildən artıqdır ki, fəaliyyətdə olan "Şəhid övladları və kimsəsiz uşaqlara yardım" İctimai Birliyi könüllülərinin fədakarcasına reallaşdırdığı layihələr haqqında cəmiyyətə bugünədək heç bir məlumat-informasiya verilməyib. Lakin hiss olunur ki, bəzi məsələlər geniş ictimai auditoriyaya çıxarılmalıdır ki, mahiyyəti dərk edilsin və könüllülərimizin sayı artsın. Əlbəttə, şəhid ailələri dövlət və hökumətimiz tərəfindən diqqətdən kənarda saxlanmır. Əksinə, bu gün ölkəmizdə şəhid ailələrinə, o cümlədən övladlarına yaradılan şərait, göstərilən diqqət və qayğı çox böyükdür. Bu məsələ Heydər Əliyev Fondunun müntəzəm şəkildə reallaşdırdığı bir sıra layihələrdə də öz əksini tapıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu istiqamətdə yürütdükləri humanitar aksiyalar və sosial siyasət əhali, o cümlədən şəhid ailələri tərəfindən yüksək qiymətləndirilir. Kimsə diqqət və qayğıdan uzaq deyil. Lakin elə məsələlər var ki, onu dövlətdən tələb etmək, yaxud sadəcə ummaq yersizdir. Məsələn, çeşid-çeşid adlarla və müxtəlif məramlarla fəaliyyət göstərən sosial, humanitar siyasət təmayüllü QHT-ləri, iş adamlarını və ya xeyriyyəçilərimizi də bu vacib məsələyə cəlb etməyin zamanıdır. Burada söhbət maddiyyatdan daha çox mənəvi, psixoloji yardımdan gedir..."

Tədbirin təşkilatçısı qeyd etdi ki, bugünkü mətbuat konfransının keçirilməsində məqsəd "Qədim qala" nəşriyyat evi və əsərlərinin kütləvi, təkrar nəşrinə, eləcə də satışına görə gündəmdə olan yazıçı Rövşən Abdullaoğlunun "Relslər üzərinə uzanmış adam" kitabının növbəti tirajından əldə olunan gəlirin "Səhid övladları və kimsəsiz usaqlara yardım" İB-ə ianə etməsi ilə bağlıdır.

Şəhid ailəsinin başçısı Pərişan xanım Musazadənin məlumatından aydın oldu ki, İB-in təşkilatçılığı və dəstəyi ilə bir neçə şəhid ailəsinin xanımı işlə təmin olunub. 1992-1993-cü illərdə həyat yoldaşları şəhid olmuş xanımlar iş tapmaqda İB-ə müraciət ediblər. Birliyin bununla bağlı müraciətinə bir çox müəssisələrdən müsbət cavab verilib və şəhid ailələrinin xanımları işlə təmin ediliblər.

Xatırladaq ki, adıçəkilən birlik öz ətrafına xüsusilə vətənpərvər gəncləri cəlb edib. Onların arasında müəllim, hüquqşünas, həkim kimi olduqca vacib ixtisas sahibləri var ki, hər biri öz peşəsi ilə şəhid uşaqlarına könüllü şəkildə, təmənnasız yardım edir.

İctimai birliyin "Şəhid övladları" departamentinin sədr müavini Sevinc Mansurova, təşkilati işlər üzrə koordinatoru Şəfa Əmirova, təhsil və tədris işləri üzrə baş koordinator Rəhimə Nağıyeva kimi "şəhid övladları və kimsəsiz uşaqlara hər zaman təmənnasız yardım etməyə hazıram" deyib birliyə qoşulan könüllüləri var.

"Relslər üzərinə uzanmış adam" əsərinin müəllifi Rövşən Abdullaoğlu, "Qədim qala" nəşriyyat evinin direktoru Fərhad Abdullayev, fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub, "Əsgər ailələrinə dəstək" İctimai Birliyinin sədri Mətanət Əsgərqızı, "Dünya, ana və uşaqlar" İB-in rəhbəri Dünyaxanım Əliyeva, şair-publisist Gilə Əliqızı, şəhid övladlarından İlkin Rüstəmli, Kamran Əhmədov və başqaları hər iki tərəfin xeyirxahlıq missiyasını alqışladılar və fəaliyyətlərində uğurlar dilədilər.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Tikilməkdə olan Goranboy Olimpiya İdman Kompleksi modern memarlıq üslubunda layihələndirilib



Azərbaycan bu gün dünyada idman ölkəsi, mötəbər beynəlxalq yarışların keçirildiyi məkan kimi tanınır. Bu uğurların qazanılmasında paytaxtımızla yanaşı, regionlarda inşa edilən müasir olimpiya idman komplekslərinin və idman qurğularının böyük rolu var. Hazırda bu istiqamətdə işlər davam etdirilir, Gənclər və İdman Nazirliyinin sifarişi ilə Tərtər, Yardımlı, Neftçala və Goranboy rayonlarında yeni olimpiya idman kompleksləri inşa olunur.

Gənclər və İdman Nazirliyinin Maliyyə və maddi-texniki təchizat şöbəsinin sektor müdiri Elmir Mehdiyev AZƏRTAC-a müsahibəsində bildirib ki, son illər Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin idman infrastrukturunun yenilənməsi və müasir standartlara cavab verən bazanın yaradılması istiqamətində əsaslı işlər görülüb.

İdman infrastrukturunun yenilənməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində görülmüş işlərin yalnız qeyd edilən iri idman obyektləri ilə məhdudlaşmadığını deyən Elmir Mehdiyev diqqətə çatdırıb ki, eyni zamanda, son 10 ildə təkcə Gənclər və İdman Nazirliyinin sifarişi ilə Bakı şəhərinin qəsəbələrində 9 idman zalı, minifutbol və digər idman meydançaları, şahmat məktəbi tikilib istifadəyə verilib. Bu işlər, eyni zamanda, regionları da əhatə edib. Növbəti illərdə paytaxtın Səngəçal, Ələt, Qobustan, Qaraçuxur, Bülbülə, Türkan, Qala qəsəbələrində də bu kimi idman zalları və meydançaların tikilərək istifadəyə verilməsi nəzərdə tutulur.

Goranboy Olimpiya İdman Kompleksinin tikintisi barədə məlumat verən E.Mehdiyev deyib: "Bu kompleks modern memarlıq üslubunda layihələndirilib. Tikinti işləri qrafikə və tikinti norma və qaydalarına uyğun olaraq yüksək keyfiyyətlə və sürətlə davam etdirilir. Kompleksin ərazisi 2,8 hektar, tikintialtı sahəsi 5900 kvadratmetr, ümumi sahəsi 9137 kvadratmetrdir. Kompleksdə 1100 tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, minifutbol yarışlarının keçirilməsi üçün universal idman stadionunun tikintisi planlaşdırılır. Burada həmçinin üzgüçülük, güləş, boks, trenajor, şahmat, konfrans zalları, yeməkxana, inzibati otaqlar tikiləcək. Eyni zamanda, baş plana əsasən ərazidə üçmərtəbəli 45 çarpayı yerlik mehmanxana və uşaqlar üçün meydançanın inşası nəzərdə tutulur".

Hazırda kompleksin əsas binasında dəmir-beton konstruksiyalar quraşdırılır, hörgü, izolyasiya və digər işlər görülür. Ərazidə şaquli planlaşdırma və digər torpaq işləri yerinə yetirilir. Kompleksdə işlərin təxminən 20 faizi yekunlaşıb.

◆ Bizlərdən biri

# Boz dünyanın ağ adamları

**...Onlar da bizlərdən biridir. Bu fani dünyanın zamanı yetişəndə çıxıb gedəcək qonaqları. Yer üzünün adi sakinləri...**

**Onlar da bizlərdən biridir. Amma bir az fərqli, qeyri-adi... Bir az özünəməxsus, xüsusi...**

**Onlar da bizlərdən biridir. Sadəcə rəngləri çoxumuzun rəngindən seçilir. Nə əsmərdilər, nə qaradərili, nə də sarışın. Ağdırlar... Süd kimi, qar kimi... Bəmbəyaz...**

**Dəriləri, saçları, qaşları, kirpikləri ağappaqdır. Elə ürəkləri də... Bəs taleləri necə? Bəxtləri də özləri kimi ağdırmı?**

**Onlardan danışacağıq - boz dünyamızın ağ adamlarından...**

**Albinoslardan...**





### "Özümü elə belə də sevirəm"

"Küçədə, avtobusda, gəzməyə çıxanda adama elə baxırlar ki... Çox vaxt saçıma lağ edirlər. "Rusa oxşayırsan", "öz saçındı, yoxsa rəngləyirsən?" deyə atmacalar atırlar. Amma heç birini vecimə almıram. Saçımın təbii rəngindən xoşum gəlir, dəyişmək fikrim də yoxdu". 15 yaşlı Zivər Yağıyeva deyir bunları.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 saylı Respublika xüsusi internat məktəbində 9-cu sinifdə oxuyur. 6-cı sinifdən bu məktəbdə təhsil alır. Evin bir qızıdır. Məktəbdə özünü yaxşı hiss edir, çünki dostları çoxdur. Ən əsası isə burada heç kim ona xarici görünüşünə görə lağ etmir. Elə ona görə də dərslərini həvəslə oxuyur. Gözəl qiraətçidir. Üstəlik bu il Diana Qurtsakayanın təşkilatçılığı ilə Moskvada keçirilən musiqi festivalında iştirak edib və diplom qazanıb. Qarşıda isə onu daha böyük uğurların gözlədiyinə inanır.

Bu məktəbdə təhsil alan 9 albinosdan biri də 16 yaşlı Həcər Mirzəyevadır. Məktəbi bitirməyinə hələ 2 il var. 10 yaşından cüdo ilə məşğuldur. İlk uğurunu 13 yaşında qazanıb. Paralampiya oyunlarında respublika üzrə 3-cü yerə çıxıb. 6 il ərzində 72 medal qazanıb. Amalı Azərbaycanı beynəlxalq müsabiqələrdə təmsil etməkdir. Xarici görünüşünə gəldikdə... Böyük qardaşı da albinosdur. Ağ uşaqlar valideynlərinin münasibətinə istəmədən, bilmədən qara çizgi salıblar. Boşanıb valideynləri. Atası ikinci dəfə ailə qurub. Vaxt tapdıqca məktəbə qızını görməyə gəlir.

Amma bunlar Həcəri sarsıtmır. Onu incidən insanların münasibətidir: "Çölə, bayıra çıxanda bizə qəribə baxırlar. Lağ edirlər, söz atırlar. Bəzən sözlə kifayətlənməyib, daş da atırlar. Əlbəttə, adamı incidir. Axı biz də, hamı kimi, adi insanıq. Artıq öyrəşmişəm bu cür reaksiyalara, fikir vermirəm. Saçlarımın rəngini dəyişmək istəyim də yoxdu. Mən özümü elə belə də sevirəm".

### Ağ adamın qara günləri

*...Onun qara günləri hələ ana bətnində ikən başladı. Atasının ölümü ilə. Hələ doğulmamış yetim qaldı. Dünyaya gəldiyi ilk dəqiqələrdən isə anası ondan imtina etdi. Ağ olduğuna görə... Gürcü əsilli şair-tərcüməçi, Azərbaycan, Gürcüstan, Rusiya Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Giya Paçxataşvili həyatının keşməkeşli dolanbaclarından danışır.*

- Mən və əkiz bacım Liya albinos kimi dünyaya gəlmişik. Anam bizi görəndə havalanmışdı sanki. Məni tutub boğurmuş, həkimlər son anda əlindən almışlar. "Neynirəm bu pişik balalarını" deyib ikimizdən də imtina etmişdi. Ancaq bacımın çəkisi az olduğu üçün uşaq evi onu götürməmişdi. Odur ki, əkiz bacım anamla qaldı. Mən isə dünyaya gəldiyim Qax doğum evindən Gəncə uşaq evinə göndərildim.

6 yaşım olanda anama məktub yazdım. Təbii ki, necə göndərəcəyimi bilmirdim. Müəllim-tərbiyəçimiz Mariya Mixailovnaya müraciət etdim. O, şəxsi işimdəki ünvanı götürüb məktubumu poçtla Qaxa göndərdi. Tarix indiyə kimi yadımdadır, 1967-ci il mayın 8-də yuxuda gördüm ki, anam iki kişi ilə yanıma gəlib. Mayın 9-u stadionda futbol oynayırdım. Uşaqlar gəlib çağırdılar ki, anan tapılıb. Amma direktorumuz Yusif Bayramov gələn qadının həqiqətən mənim anam olduğunu yoxlamaq üçün uşaq evindəki bütün albinosları bir cərgəyə düzdü. Anam yanımdan keçəndə ürəyi getdi...

*Beləcə, Giya anasını tapır. Amma bu qovuşma onu ağ günə çıxarmır. Ana ağ oğlunu yenə də özü ilə evə aparmır. Yalnız tətildən-tətilə Qaxa anasının, qardaş-bacılarının yanına gedir.*

- Anam tütünçü idi. Səhər çıxıb, axşam gəlirdi evə. İki bacı, iki qardaş idik. Məndən böyük qardaşım və bacım albinos deyildi. Yayı səbirsizliklə gözləyirdim. Bütün günü kənd uşaqları ilə oynayırdım. Mən 7 yaşımdan Bakıda gözdən əlillər üçün internat məktəbində oxuyurdum. Mənə şəhər uşağı kimi baxırdılar, onlara maraqlı idim. O vaxt bizə aylıq müavinət verilirdi. Həmin pulları xərcləməyib yığırdım. Kəndə gələndə hədiyyələr alırdım, qardaş-bacılarımı hind kinolarına aparırdım, onlara pul verirdim. İndi fikirləşə bilərsən ki, pulun gücünə bax, sevgi də yarada bilər. Amma o vaxt bunu düşünmürdüm, uşaq ağlımla yaxşılıq edirdim və ondan həzz alırdım.

### "Ağ adam heç də atılası adam deyil"

*İnternatda Giya ilə birlikdə 12 albinos uşaq vardı. Hətta öz aralarında "Ağ Adamların Partiyası"nı da yaratmışdılar. Dərslərini ən yaxşı oxuyan ağ şagirdə rəmzi mükafat kimi dəftər-qələm hədiyyə edirdilər. Yuxarı sinifdə oxuyan albinoslar özlərindən kiçikləri qoruyurdular. Əslində internatda onların qorunmasına ciddi ehtiyac da yox idi. Çünki məktəbdə onlara münasibət normal idi, adi qarşılanırdılar. Vay o gündən ki, şəhərə çıxaydılar. "Ağbaş" deyə qışqırır, təhqir edir, sataşır, hətta daş atırdılar. "Çirkin ördək balası" kimi...*

- Futbolu çox sevirdim. Məktəbdə komandanın qapıçısı idim. Bir gün məşqçi gördü elementar top zərbəsini qapıya buraxıram. Bilmirdi axı gün işığında görmürəm. Bir gözüm anadangəlmə görmür. İkincidə isə görmə çox aşağıdır. Bunu məşqçiyə deyəndə məni komandadan çıxardı. Amma sonradan əlillər arasında yüngül atletika üzrə çempion oldum. Üzgüçülük, şahmat yarışlarında iştirak etdim.

Uşaq vaxtı düşünürdüm ki, niyə mən hamı kimi deyiləm. Ağ olduğum üçün pis olurdum, sıxılırdım. Amma böyüdükcə düşüncələrim dəyişdi. Əminəm, anam məni atmasaydı, kənddə böyüsəydim, indiki Giya olmayacaqdım. Qapalı mühitdə qalacaq, mal-qara saxlamaqla kifayətlənəcəkdim. Yadımdadı, ana məhəbbəti mövzusunda yazdığım inşa respublika üzrə 1-ci yeri tutmuşdu. Bəlkə də ananın məndən imtina etməsi şüuraltı stimul olmuşdu. Yaşamaq və sübut etmək istədim ki, ağ adam heç də atılası adam deyil. Bəli, anam məndən imtina etmişdi. Amma mən onu çox istəyirdim. Həmişə belə olur - atılan uşaq ananı daha çox sevir. O özü də ömrünün son çağlarında hiss elədi ki, yanında saxladığı uşaqlardan daha çox mən ona bağlıyam. Son günlərinə qədər yanında idim. Anam vərəmə yoluxduğu üçün qardaş-bacılarım ona yemək verməyə də qorxurdular. Mən isə onu ruhlandırmaq üçün onun qaşığı ilə yemək yeyir, stəkanından çay içirdim.

Mən və əkiz bacım Liya albinos kimi dünyaya gəlmişik. Anam bizi görəndə havalanmışdı sanki. Məni tutub boğurmuş, həkimlər son anda əlindən almışlar. "Neynirəm bu pişik balalarını" deyib ikimizdən də imtina etmişdi. Ancaq bacımın çəkisi az olduğu üçün uşaq evi onu götürməmişdi. Odur ki, əkiz bacım anamla qaldı. Mən isə dünyaya gəldiyim Qax doğum evindən Gəncə uşaq evinə göndərildim.

*G.Paçxataşvili bu həyatda çox çətinliklərlə qarşılaşıb. Birinci həyat yoldaşından ayrılıb, qardaşının köməyi ilə qızı Nargiləni böyüdüb, ali təhsil verib, gəlin köçürüb. İndi 7 yaşlı nəvəsi də var. Amma heç biri albinos deyil. İkinci xanımı Lamara xəstəlikdən dünyasını dəyişib. İki il öncə isə 3-cü dəfə ailə qurub. Xanımı ilə birlikdə dövlət tərəfindən ona verilən evdə yaşayır. Prezident İlham Əliyevin son sərəncamından sonra 1-ci qrup gözdən əlil kimi 300 manat müavinət alır. Amma problemlər hələ də qalmaqdadır.*

### "Şeytanın köməkçiləri"

Albinizm nadir rastlanan və insanların marağına səbəb olan xəstəliklərdən biridir. Belə insanlar, dərisi, saçları, qaş və kirpikləri ağ rəngdə olmaqla, ətrafdakıların diqqətini öz üzərlərinə cəmləyirlər. Onlar elmi dildə "albinos" adlanır. Bu ifadə latınca "alba" sözündən götürülüb, mənası ağ deməkdir.

Avropada hər 20 min, dünyada hər 17 min insandan biri albinos kimi doğulur. Albinoslar daha çox Afrika ölkələrində (Tanzaniya və Nigeriyada) dünyaya gəlirlər - hər 5 min adamdan biri bu xəstəliyin daşıyıcısıdır.

Albinizmə heyvanlar arasında da rast gəlinir. Təxminən on min heyvandan biri albinosdur.

Hələ qədim zamanlardan albinoslar müxtəlif insanlar tərəfindən təqib olunur, çox böyük təhlükələrlə üz-üzə qalırdılar. Orta əsrlərdə onları qeyri-adi xarici görünüşlərindən dolayı lənətlənmiş sayır, "şeytanın köməkçiləri" adlandırır və tonqalda diri-diri yandırırdılar. Təəssüf ki, bir çox Afrika ölkələrində albinoslar hələ də müxtəlif işgəncələrə məruz qalırlar. Yerli cadugərlər hesab edirlər ki, albinosların bədən hissələri cadu və ovsunların gücünü artırır, sümükləri evlərə bərəkət gətirir, bədən üzvləri isə talismandır. Tanzaniyadakı inanca görə, albinosların daxili orqanları bəzi xəstəliklərin aradan qaldırılmasına kömək edir, iliklərindən hazırlanan müxtəlif içkilər sonsuzluq xəstəliyinə çarədir. Hətta Vudu cadugərləri albinosların əlləri, ayaqları, gözləri və ya başının dərisindən iksir hazırlayırlar.

### Yeraltı dünyanın gizli sakinləri

Məhz belə batil inanclara görə albinosların çoxu dəfələrlə oğurlanıb, qaçırılıb. Çox vaxt onları öldürüb, bədən üzvlərini, orqanlarını baha qiymətə satırlar. Son göstəricilərə görə, hər il Afrikada 100 albinos uşaq öldürülür. Onların qətlinə görə muzdlu qatillər orta statistik afrikalının illik qazancından daha çox pul alırlar. Deyilənlərə inansaq, Afrikada bir albinosun orqanları 75 min dollara satılır. Albinosların bədən alış-verişinin aparıldığı tək bazar isə Tanzaniyada yerləşir.

Albinoslar arasında cinsi zorakılıq halları da tez-tez baş verir. Afrikada inanırlar ki, QİÇS xəstəsi olan şəxs albinosla cinsi əlaqə yaşasa, şəfa tapa bilər. Bütün bunlar Afrikada yaşayan insanların cahil düşüncə tərzi, batil inancları ilə əlaqələndirilsə də, inkişaf etmiş ölkələrdə də bu hallara rast gəlmək mümkündür.

Minlərlə albinos belə cinayətlərə qurban getməmək üçün yer altında gizlənir. Albinos uşaqların təhlükəsizliyi üzrə birlik yaradılıb, burada onlar təhsil alır və qorunurlar. Bundan başqa, Tanzaniyada albinoslar üçün xüsusi düşərgə var. Ora gələn albinoslar özlərini təhlükəsiz və psixoloji baxımdan daha rahat hiss edirlər. Düşərgəyə gələnlərin bəzilərinin əli, ayağı artıq kəsilmiş olur. Divarları hündür olduğundan həbsxananı xatırladan bu düşərgə cadugərlərdən xilas olmaq üçün yeganə qurtuluş yolu hesab olunur.

### Tibb bu xəstəlik qarşısında hələ də acizdir

Bəli, Afrikada albinoslar xüsusi insanlar sayılır, bədən üzvləri və orqanlarının şəfa mənbəyi olduğu düşünülür. Halbuki onlar sağlamlıq, intellekt və yaşam müddətinə görə digər insanlardan fərqlənmirlər. Bircə üstünlükləri odur ki, sümüklərində fosfor elementi çoxdur.

Genetik Ehtiyatlar İnstitutunun şöbə müdiri, biologiya elmləri doktoru, professor Ramiz Əliyev deyir ki, albinizm genetik xəstəlikdir, orqanizmdə melanin piqmentinin olmaması nəticəsində yaranır: "Bilirik ki, insanda 46 xromosom var. Onlardan 44-ü autosom, yəni somatik bədən xromosomlarıdır. 2-si isə cinsi xromosomdur - qadınlarda XX, kişilərdə XY. Albinizm əsasən X xromosomunda dəriyə rəng verən melanin piqmentini istehsal edən genin mutasiyası nəticəsində baş verir. Normal genlərdə melanin piqmenti - rəng verən zülal istehsal olunur. Albinoslarda anormal, mutasiya olunmuş gen həmin zülalı sintez edə bilmir. Nəticədə rəngsizlik əlamətləri üzə çıxır. Melanin dəriyə, saçlara, gözə, mərkəzi sinir sisteminin müəyyən hissələrinə tünd rəng verir. Ancaq onun vəzifəsi təkcə rəng vermək deyil. İnsan dərisində bu piqmentin olması qoruma xarakteri də daşıyır. Melanin dərimizi günəş şüalarının zərərli təsirindən qoruyur. Tədqiqatçılar gözdə olan melanin maddəsinin həm gözü zərərli şüalardan qoruduğunu, həm də görmə qabiliyyətini gücləndirdiyini müəyyən ediblər. Albinosların bədənində melanin piqmenti olmadığı üçün də gözləri çox pis görür, dəriləri günəşə qarşı həssas olur. Bu səbəbdən günəş şüaları albinoslar üçün dəri xərçənginə tutulma riski deməkdir. Onlar xüsusi qoruyucu eynək taxmalı və bütün bədəni örtən paltar geyinməlidirlər".

Professor qeyd edib ki, albinoslar ailə quranda diqqətli olmalı, qohum evliliklərindən uzaq qaçmalıdırlar: "Xəstəlik əsasən X xromosomundakı genin mutasiyası nəticəsində baş verdiyindən daha çox anadan uşağa keçir. Amma atadan da keçmə ehtimalı var. Əgər anada, yaxud atada albinizm varsa, onların övladı da bu xəstəliyin daşıyıcısıdır. Yəni o adamın daşıyıcı olduğunu zahirən bilmək mümkün deyil. Bir də görürsən zahirən normal iki adamın albinos uşağı doğulur. Bu o deməkdir ki, valideynlərin ikisi də albinizmin daşıyıcısıdır. Ona görə də iki daşıyıcı nikaha girərsə, onların övladı mütləq albinos doğulacaq. Albinos sağlam adamla evlənərsə, uşaqları sağlam da doğula bilər, xəstə də. Qohum evliliyindən isə mütləq uzaq qaçmalıdırlar. Çünki sən albinossansa, deməli, bu, sənə əvvəlki nəslindən ötürülüb. Bəs haradan bilirsən ki, evləndiyin qohum da bu xəstəliyin daşıyıcısı deyil?!"

R.Əliyev təəssüflə vurğulayır ki, tibb bu xəstəlik qarşısında hələ də acizdir. Albinizmin müalicəsi indiyə qədər tapılmayıb: "Hazırda tibdə heç bir metodla albinizmin müalicəsi yoxdur. Hətta ana bətnində də diaqnozun qoyulması mümkün deyil. Düzdür, siçanlar üzərində təcrübə aparılıb. Məlum olub ki, gen mühəndisliyi yolu ilə, DNT-də müəyyən nukleativləri dəyişməklə albinizmi müalicə etmək olar. Amma klinik təcrübələr aparılmayıb. Hesab edirəm ki, Əziz Sancarın Nobel mükafatı almış araşdırması - qüsurlu DNT-ni "təmir etmək" metodu inkişaf etdirilsə, bəlkə də gələcəkdə albinizmin müalicəsi tapıla bilər".

### Fosfor adamlar...

Qeyd edək ki, Azərbaycanda albinosların sayı ilə bağlı rəsmi statistika yoxdur. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətindən bildiriblər ki, bu xəstəliyi olan şəxslərlə bağlı ölkəmizdə ayrıca statistika aparılmır: "Çünki albinosluq ayrılıqda əlillik üçün göstərici hesab edilmir. Albinoslarda adətən göz zəifliyi olur. Belə olan halda isə zəiflik dərəcəsindən asılı olaraq həmin insanlara I, II, III dərəcə əlillik təyin edilir".

Təəssüf ki, Azərbaycanda albinosların hüquqlarını müdafiə edən, problemlərini ictimailəşdirən təşkilat da yoxdur. Halbuki bəzi xarici ölkələrdə albinos uşaq dünyaya gələn kimi onun valideynləri ilə müqavilə bağlanır. Müqavilənin şərtlərinə görə, hər ay albinosun adına açılmış bank hesabına müəyyən məbləğdə pul köçürülür. Həmin şəxs vəfat edən zaman isə onun sümükləri götürülür. Çünki digər insanlardan fərqli olaraq, albinosların sümükləri fosforla olduqca zəngindir. Fosfordan isə gözəl bəzək əşyaları hazırlanır və baha qiymətə satılır...

Bəli, onları digər insanlardan fərqləndirən xüsusiyyət, daha doğrusu, üstünlük budur - sümüklərinin fosforla zəngin olması. Necə deyərlər, onlar bizlərdən "qiymətlidir".

Amma onlar da bu yer üzünün adi sakinləridir axı. Bizim kimi...

*Onlar da bizlərdən biridir. Sadəcə rəngləri çoxumuzun rəngindən seçilir. Ağdırlar... Bəmbəyaz... Dəriləri, saçları, qaşları, kirpikləri ağappaqdır. Elə ürəkləri də...*

*Kaş bəxtləri də özləri kimi ağ olsun...*

***Xəyalə MURADLI, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# İsveçdə əl işlərindən ibarət "Azərbaycan mədəniyyəti" adlı sərgi təşkil edilib





Azərbaycanlı rəssam, milli geyim və dekorativ tətbiqi sənət ustası, Azərbaycan Rəssamlar İttifaqının üzvü Kəmalə Kərimova-Janssonun İsveçdə "Azərbaycan mədəniyyəti" adlı sərgisi keçirilib.

AZƏRTAC xəbər verir ki, İsveçin milli gün bayramına təsadüf edən sərgi krallığın Onge əyalətinin kitabxanasında reallaşıb.

Azərbaycan və İsveçin Dövlət himnlərinin səslənməsi ilə başlayan sərgidə rəssam milli geyimlərimizdən Bakı, Qarabağ, Şamaxı, Şəki, qədim parçalarımız, güləbətin tikmə ilə Basqala aid olan başmaq, müxtəlif növ tikmə üsulu ilə hazırlanan əşya qabları və "Azərbaycan inciləri" adlı pannolar nümayiş etdirib. Kəmalə Kərimova-Jansson əl işləri ilə yanaşı, Azərbaycanın dahi şəxsiyyətləri və xalq sənətkarlığı haqqında da foto və izahlı məlumatlar nümayiş etdirib. Füzuli, Nizami, Nəsimi, Üzeyir Hacıbəyli, Vaqif Mustafazadə, Lətif Kərimov, Səttar Bəhlulzadə və digər şəxsiyyətlər barədə fotolar, həmçinin Qobustan əlyazmaları, milli muğam, Azərbaycan mətbəxinin inciləri təqdim edilib. Tədbirdə Qara Qarayev, Fikrət Əmirov, Müslüm Maqomayevin, Bülbül, Rəşid Behbudov, Soltan Hacıbəyli, Əhsən Dadaşov kimi musiqiçi və kompozitorlarımızın həzin musiqi və ifaları səsləndirilib.

Sərginin İsveçin milli gününə təsadüf etdiyini nəzərə alaraq Kəmalə Kərimova-Jansson öz tikdiyi İsveçin milli libasından istifadə edib və burada Nobel qardaşlarının Bakıda neft sahəsində fəaliyyətlərinin tarixi haqqında məlumatları diqqətə çatdırıb.

Tədbirdə iştirak edən yerli ictimaiyyət nümayəndələri və qonaqlar Azərbaycan mədəniyyətinin zərif və zəngin olduğunu heyranlıqla qeyd ediblər.

# Ermənistandan növbəti təxribat

## İşğalçı ölkə rəhbərliyinin təcavüzkar və qəbuledilməz siyasəti Qarabağ danışıqlarını pozmağa yönəlib

*Əvvəli 1-ci səh.*

Ötən ayın sonunda ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfəri ərəfəsində mayor Aqil Ömərovun qətlə yetirilməsi də sübut edir ki, Ermənistan atəşkəs rejiminin qorunub saxlanmasını, sülh danışıqlarının konstruktiv məcrada davam etdirilməsini istəmir.

Bütün mühüm parametrlərdə, o cümlədən hərbi müstəvidə Ermənistan üzərində böyük üstünlüyə malik Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həllində maraqlı olduğunu dəfələrlə bəyan edib. Bu, eyni zamanda Azərbaycanın indiyədək işğalçı ölkəyə etdiyi ən böyük güzəşt sayılır. Amma ölkəmiz Ermənistanın işğal siyasətini uzatmasını da qətiyyən qəbul etmək niyyətində olmadığını ən yüksək səviyyədə beynəlxalq ictimaiyyətin, o cümlədən münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin diqqətinə çatdırıb. Azərbaycan tərəfinin tələb olunacağı təqdirdə güc yolu ilə ərazilərini işğaldan azad etmək iqtidarında olmasını isə dünya ictimaiyyəti, o cümlədən işğalçı Ermənistan yaxşı bilir.

Lakin Ermənistanın baş naziri Nikol Paşinyanın ötən həftə Sankt Peterburqda forum zamanı işğalçı ölkənin rəhbərliyinin cəbhə xəttində təxribatlara hər hansı aidiyyətinin olması barədə sualı təkzib etməsi, sonra isə bu ölkənin müdafiə nazirinin belə açıqlama verməsi göstərir ki, ya baş nazir ölkəni idarə edə bilmir, ya da bütün bunlar yalandır və sülh danışıqlarının imitasiyasıdır. Belə bir qənaət yaranır ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bütün məsuliyyət Ermənistan tərəfinin və şəxsən baş nazirin üzərinə düşəcək.

Azərbaycan tərəfi məsələni kifayət qədər konkret və sərt şəkildə qoyub. Bakının mövqeyi bundan ibarətdir ki, Ermənistanın mövcud rəhbərliyinin təcavüzkar və qəbuledilməz Qarabağ siyasəti danışıqları pozmağa yönəlib. Belə vəziyyət öz növbəsində münaqişənin alternativ yolla həllini aktuallaşdırır. Eyni zamanda o da danılmaz faktdır ki, Azərbaycan ərazilərinin gücdən istifadə edərək hərbi işğalının davam etdirilməsinə görə məsuliyyət daşıyan tərəf Ermənistandır.

BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə görə isə Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmayana qədər Ermənistan bu məsuliyyətdən qaça bilməz. Digər tərəfdən ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunan və hazırda müzakirə edilən bütün sənədlərdə Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi kimi erməni və azərbaycanlı icmaları müəyyən edilib. Rəsmi Bakı Ermənistanın baş nazirinə ziddiyyətli açıqlamalarla çıxış etmək əvəzinə həmin sənədləri oxumağı tövsiyə edir. Amma Paşinyan bütün bunların əvəzinə təxribat xarakterli və ziddiyyətli açıqlamalarla yanaşı, cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə və danışıqlar prosesinin pozulmasına yönəlik addımlar atır.

Görünən budur ki, Ermənistanın siyasi-diplomatik başbilənləri müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında reallığı qəbul etməkdə acizdirlər. Bu səbəbdən də hələlik rəsmi Yerevan heç bir konstruktiv qərar qəbul edə bilmir. Belə vəziyyət öz növbəsində sürətlə Ermənistanın əleyhinə işləyərək onun üzləşdiyi problemlərin miqyasını daha da dərinləşdirir. Ekspertlər hesab edirlər ki, yaxın zamanda Ermənistan rəhbərliyi münaqişənin substantiv danışıqlar yolu ilə həllində, regionda davamlı sülhün və sabitliyin təmin olunmasında əməli addımlar atmasa, onda Azərbaycanın işğalçı ölkə üçün Aprel dərslərini təkrarlaması qaçılmaz olacaq.

Beynəlxalq ictimaiyyət Ermənistanın təxribatlarına sərt reaksiya verməli və bu ölkənin işğalçı siyasətinin, sülh danışıqlarını sabotaj etməsinin qarşısını almalıdır. Göründüyü kimi, vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistan və onun rəhbərliyinin üzərinə düşür.

İndi seçim qarşı tərəfindir. Ermənistan rəhbərliyi bundan əvvəl iqtidarda olan səhra komandirlərinin siyasətini davam etdirərsə, onda ordumuz tərəfindən sərt zərbələrə məruz qalacaq. Bu, işğalçı ölkə üçün həm də əlavə yeni problemlər deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Tokayev Qazaxıstanın Prezidenti seçildi



Gözlənildiyi kimi, Qazaxıstanın müvəqqəti prezidenti Kasım-Jomart Tokayev dövlət başçısı seçkilərində qələbə qazanmışdır. İlkin rəsmi məlumata görə, Nursultan Nazarbayevin 66 yaşlı varisini seçicilərin 70,76 faizi dəstəkləmişdir.

Müxalifətin namizədlərinin qələbə üçün heç bir şansı olmamışdır. Tokayevin ən yaxın rəqibi jurnalist Amirjan Kosanov 16,02 faiz səs əldə etmişdir. "Akjol" demokrat partiyasının namizədi Daniya Yespayevanı 5,2 faiz, "Ayıl" partiyasının namizədi Toleutay Raximbekovu 3,2 faiz, Həmkarlar İttifaqları Federasiyasının namizədi Amangeldı Taspixovu 2,07 faiz və kommunist Jambıl Axmetbekovu 1,82 faiz seçici dəstəkləmişdir.

Kasım-Jomart Tokayevin Qazaxıstan Prezidenti vəzifəsinə namizədliyini hakim "Nur Otan" partiyası irəli sürmüşdü.

## BƏƏ-də 200 nəfərə yaxın adam içməli sudan zəhərləndi



BƏƏ-nin Əcman əmirliyində yaşayış kompekslərindən birinin təxminən 200 sakini içməli sudan zəhərlənmişdir. Bu barədə yerli polis məlumat vermişdir.

Məlumata görə, ötən şənbə və bazar günləri "Horizon Towers" kompleksinin 190 sakini yardım üçün tibbi müəssisələrə müraciət etmişdir. Yeddi nəfər xəstəxanaya yerləşdirilmişdir. Hazırda onların vəziyyəti sabitdir.

Hadisə ərəfəsində zərərçəkənlər mənzillərdə pis qoxudan və içməli suyun rənginin dəyişməsindən şikayətlənmişdilər.

Hazırda əmirliyin kommunal xidmətləri yaşayış kompleksində bütün boru və çənləri yoxlayır. Suyun korlanmasının səbəbi hələ müəyyən olunmamışdır.

## Türkiyə İslandiyaya etiraz notası verdi

Reykyavik hava limanında baş vermiş hadisəyə görə Türkiyə İslandiyaya etiraz notası vermişdir. Aeroportda Avro-2020 seçmə mərhələsinin matçına gəlmiş Türkiyə milli komandasının futbolçularına qarşı hörmətsizlik edilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Ankara ada dövlətinin hökumətindən Türkiyə millisinə münasibətdə əlavə təhlükəsizlik tədbirləri görməyi tələb etmişdir.

Notada diqqət hava limanında pasport nəzarətini iki saat uzatmış gömrük işçilərinin aqressiv hərəkətlərinə yönəldilmişdir. Eyni zamanda türkiyəli futbolçular ciddi yoxlamaya məruz qalmışlar. Komandanın baqajı da uzun müddət yoxlanılmışdır.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu il 04 iyun tarixdə elan edilmiş "Quba rayonunda Uşaq bərpa mərkəzinin, Masallı rayonunda Uşaq bərpa mərkəzinin, Ağcabədi rayonunda Uşaq bərpa mərkəzinin, Bakı şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin, Gəncə şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin, Quba rayonunda İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin, İsmayıllı rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzi, Quba rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzi, Bakı şəhərində Xəzər rayonunun sahilində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin, Lənkəran şəhərində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin, Xaçmaz rayonu, Nabran qəsəbəsində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması" üzrə elan olunmuş açıq tenderinin davamından imtina edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən Hacıqabul Sənaye Məhəlləsi üçün mühafizə xidmətinin satın alınmasına dair keçirilmiş kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" 27 dekabr 2001-ci il tarixli 245-IIQ№-li Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış elan edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC Neftçala və Masallı sənaye məhəllələri üçün yanğınsöndürmə balonlarının doldurulması və məlumat lövhələrinin hazırlanması xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər 012 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 14.06.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 30.04.2019-cu il tarixdə keçirilmiş Müxtəlif növ tros, kanat və yük kəmərlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "TCS" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 07.06.2019-cu il tarixdə ƏDV daxil 85 809,72 manat (səksən beş min səkkiz yüz doqquz manat 72 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 12,13, 26 aprel və 22 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına tikinti materiallarının 3 LOT üzrə LOT-1- Dolğu mallarının, LOT-2 -Son tamamlama materiallarının və LOT-3- Beton məmulatlarının və sementin satın alınması məqsədilə dərc edilmiş tenderlərində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 27 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 28 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel.: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Mərkəzlərin layihələndirilməsi ilə bağlı işlərinin açıq tender üsulu ilə satın alınmasını elan edir

**Tender 11 LOT üzrə keçirilir.**

**Tenderin predmeti:** Mərkəzlərin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 1:** Quba rayonunda Uşaq bərpa mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 2:** Masallı rayonunda Uşaq bərpa mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 3:** Ağcabədi rayonunda Uşaq bərpa mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 4:** Bakı şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 5:** Gəncə şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 6:** Quba rayonunda İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 7:** İsmayıllı rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 8:** Quba rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 9:** Bakı şəhərində Xəzər rayonunun sahilində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 10:** Lənkəran şəhərində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

**LOT 11:** Xaçmaz rayonu, Nabran qəsəbəsində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzlərinin layihələndirilməsi ilə bağlı işlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası, (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı:** **Hər Lot üzrə 300,0 (üç yüz) manat**
**Satınalan təşkilat:** **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

**VÖEN:** **1700093011**
**Bank:** **Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD:** **210005**
**Müxbir Hesabı:** **AZ41NABZ01360100000000003944**
**VÖEN:** **1401555071**
**SWIFT** **CTREAZ22**
**H/HESABI:** **AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **17 iyul 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **25 iyul 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **26 iyul 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC müxtəlif mal-materialların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:
LOT-1 Müxtəlif sərfiyyat mallarının satın alınması - 400 manat
LOT-2 Müxtəlif elektrik mallarının satın alınması - 400 manat
LOT-3 Müxtəlif ÖİN aksesuarlarının satın alınması - 400 manat
LOT-4 Müxtəlif sayğac və sayğac qutularının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 25 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 iyul 2019-cu il saat 16:00-da Ələsgər Qayıbov küçəsi, 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 6-9 saylı binaları üzrə 10 mənzil, həmçinin 10, 11, 12 və 13 saylı binalarında yerləşən 243 mənzilin, ümumilikdə 253 mənzilin yalnız **öz vəsaiti hesabına ödəniş üsulu ilə** satışı 12 iyul 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 17 iyul 2019-cu il tarixi saat 00:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi 14 iyul 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 17 iyul 2019-cu il tarixi saat 00:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 253 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 27.12.2016-cı il tarixli 23089 nömrəli, 06.01.2017-ci il tarixli 23126 nömrəli, 30.01.2017-ci il tarixli 23206 nömrəli və 31.01.2017-ci il tarixli 23210 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi ($m^2$) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi ($m^2$) | Mənzillərin xarici perimetr üzrə sahəsi ($m^2$) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 6 | 687,45 | 9 | 2 | 1 | 2 | 33,10 | 40,52 | "Hünər-İnşaat" / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 1 sentyabr 2018-ci il |
| 7 | 665,36 | 9 | 2 | 2 | 1 | 54,98 | 66,92 | | |
| 8 | 645,25 | 9 | 2 | 2 | 3 | 52,27-55,02 | 62,66-66,91 | | |
| 9 | 441,56 | 12 | 1 | 1 | 2 | 31,53-32,88 | 40,12 | | |
| | | | | 3 | 2 | 69,80-70,09 | 84,47 | | |
| 10 | 441,56 | 12 | 1 | 1 | 11 | 31,52-33,08 | 40,12 | "Hovers Group" MMC / Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 10 oktyabr 2018-ci il |
| | | | | 2 | 22 | 56,87-57,79 | 70,44 | | |
| | | | | 3 | 22 | 68,86-70,46 | 84,47 | | |
| 11 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 12 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "SMT İnşaat" MMC, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44 | 1 aprel 2019-cu il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 13 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı yalnız **öz vəsaiti hesabına ödəniş üsulu ilə** nəzərdə tutulduğuna görə mənzil əldə edən vətəndaş satış qiymətinə əlavə 10% endirim əldə edəcək. Mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Mənzilin öz vəsaiti hesabına ödəniş üsulu ilə (əlavə endirimdən sonra) satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 993 | **26 932** |
| 2 | 47 652 | 4 765 | **42 887** |
| 3 | 65 417 | 6 542 | **58 875** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər haqqında məlumatla tanış olmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.

***Qeyd: "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.***

*Təkrar*

# "Azərişıq" ASC 35/6 kV-luq 206 saylı yarımstansiyanın yenidənqurma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1** 35/6 kV-luq 206 saylı yarımstansiyanın yenidənqurma işlərinin satın alınması - **400 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 10 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 iyul 2019-cu il saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Ermənistan ordusu sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Kürdlər kəndi yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29 mart, 12 aprel, 11 may və 14 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına sayğac qutularının satın alınması məqsədilə dərc edilmiş tenderlərində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 27 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 28 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel.: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev və Təlatüm Quliyev Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin rəhbəri, fövqəladə və səlahiyyətli səfir Vaqif Sadıqova anası

**XALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sabir Orucov ailəsi ilə birlikdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevə qardaşı

**NİZAMİ MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Riyad Ələkbərova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevə qardaşı

**NİZAMİ MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevə qardaşı

**NİZAMİ MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Güləddin Dadaşov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyevə əzizi

**ƏLİQƏMƏ QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Tarix fakültəsi Qədim dünya və orta əsrlər tarixi kafedrasının əməkdaşları iş yoldaşları Sevinc Zeynalovaya atası

**ƏLİXAN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9052
Sifariş 1913
Qiyməti 40 qəpik